

NƏ QƏDƏR Kİ MÜSTƏQİL AZƏRBAYCAN DÖVLƏTİ VAR, AZƏRBAYCAN XALQI VAR, HEYDƏR ƏLİYEV ÜRƏKLƏRDƏ YAŞAYACAQDIR!


VAHİD AZƏRBAYCAN UĞRUNDA!

# iki sahil

www.ikisahil.az / www.ikisahil.tv

GÜNDƏLİK İCTİMAİ-SİYASİ QƏZET

№ 39 (7294) / Çərşənbə, 27 fevral 2019-cu il


# Xocalı soyqırımı ilə bağlı ümumxalq yürüşü



⇨ Bax: səh. 2





AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV YÜRÜŞDƏ İŞTİRAK EDİB

*Prezident İlham Əliyev:*

## Bu, xalqımızın sağalmaz dərdidir, xalqımıza qarşı törədilən soyqırımıdır, ötən əsrin ən böyük cinayətidir



⇨ Bax: səh. 3

## Məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər üçün vahid aylıq müavinətin məbləği 50 faiz artırılıb

⇨ Bax səh. 3

## Naxçıvanda Xocalı soyqırımının 27-ci ildönümü ehtiramla yad edilib



⇨ Bax: səh. 7

## “Qarabağnamə - tarixin səhifələri”





⇨ Bax: səh. 5

⇧ Bax: səh. 6



*Əli Həsənov:*

## Xocalı soyqırımını törədənlər illərlə Ermənistanı idarə etdilər

⇧ Bax: səh. 7



*Bahar Muradova:*

## Beynəlxalq cinayətlərlə bağlı qanun layihəsi rəy alınması üçün beynəlxalq dairələrə göndərilib

⇧ Bax: səh. 10



## Dövlətin sosial təşəbbüslərindən təqribən 2 milyon 200 min nəfər faydalanacaq

⇧ Bax: səh. 6



*Dmitri Savelyev:*

## Xocalının daşları da haray çəkir


9 Vətəndaş amilinə verilən dəyərin göstəricisi

11 Əli Kərimlinin “arxamızca on minlər gəlir” iddiası yenə ifşa olundu

16 Marsda həyat varmış

# Xocalı soyqırımı ilə bağlı ümumxalq yürüşü

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV YÜRÜŞDƏ İŞTİRAK EDİB



**Bəşər tarixində ən qanlı cinayətlərdən biri olan Xocalı soyqırımının 27-ci ildönümü ilə əlaqədar fevralın 26-da Bakıda ümumxalq yürüşü keçirilib.**

"İki sahil" AZƏRTAC-a istinadən xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri yürüşdə iştirak ediblər.

Paytaxtın Azadlıq meydanından Xətai rayonunda ucaldılmış abidəyə doğru hərəkətə başlayan və on minlərlə insanın iştirak etdiyi ümumxalq yürüşünün məqsədi Xocalı faciəsi qurbanlarının xatirəsini ehtiramla yad etmək, erməni faşistləri tərəfindən insanlığa qarşı törədilmiş bu vəhşi cinayəti yenidən dünya ictimaiyyətinin diqqətinə çatdırmaqdır.

Ön sırada Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın olduqları ümumxalq yürüşünün iştirakçıları qanlı qırğının günahsız qurbanlarının - xüsusi qəddarlıqla qətlə yetirilmiş uşaqların, qadınların və qocaların portretlərini, 27 il əvvəl törədilmiş hadisələrin dəhşətli səhnələrini əks etdirən fotoşəkilləri, faciənin təqsirkarlarından cavab tələb etmək, onları cəzalandırmaq, bu soyqırımına beynəlxalq səviyyədə siyasi-hüquqi qiymət vermək barədə çağırışlar və soyqırımı qurbanlarının adlarının, soyadlarının əks olunduğu Azərbaycan, rus, ingilis dillərində plakatlar və transparantlar tutmuşdular. Marşrut boyunca yolların kənarlarındakı monitorlarda, binaların fasadlarında və eyvanlarında "Dünya Xocalı soyqırımını tanımalıdır!", "Xocalıya ədalət!", "Xocalını unutmayın!", "Rədd olsun erməni faşizmi!", "Xocalı - XX əsrin soyqırımı", "Cinayətkarlar cəzasız qalmayacaqlar!", "Xocalı soyqırımı - 27 il", "Xocalı soyqırımı bəşəriyyətə qarşı cinayətdir", "Xocalı, sözün bitdiyi yer", "Viran edilən Xocalı yenidən dirçələcək" və s. şüarlar nümayiş etdirilirdi.

Ümumxalq yürüşü iştirakçılarının hüznlü çöhrələrinə baxanda görünürdü ki, ötən 27 il Xocalının dinc sakinlərinə qanlı divan tutulmasının dəhşətlərini yaddaşlardan silə bilməyib. Bircə gecədə yerlə-yeksan edilmiş bu Azərbaycan şəhərinin adı indi Xatın, Liditse və Sonqmi ilə qoşa çəkilir.

Bütövlükdə bu ümumxalq yürüşü Azərbaycanın Xocalı soyqırımı ilə bağlı apardığı genişmiqyaslı işin növbəti mərhələsidir. Dünya Xocalı qırğını haqqında əsl həqiqəti bilməli, başa düşməlidir ki, XX əsrin sonunda bütün sivil bəşəriyyətin gözü qarşısında törədilmiş bu vəhşiliyə laqeydlik, yüzlərlə dinc insanın ölümündə təqsirkar olanların cəzalandırılmaması belə faciələrin planetin hər bir nöqtəsində təkrarlanmasına gətirib çıxara bilər. Bu yürüş həm də Azərbaycan xalqının sıx birliyini, onun öz şəhidlərinin xatirəsinə ehtiramını, işğal altındakı torpaqların azad olunması və ölkəmizin ərazi bütövlüyünün bərpası üçün əlindən gələni etmək əzmini nümayiş etdirdi.

* * *





Xocalı soyqırımı qurbanlarının abidəsinin ətrafında fəxri qarovul dəstəsi və tər çiçəklər düzülmüşdü.

Prezident İlham Əliyev Xocalı soyqırımı abidəsinin önünə əklil qoydu, faciə qurbanlarının xatirəsini ehtiramla yad etdi.

Birinci vitse-prezident xanım Mehriban Əliyeva, Baş nazir Novruz Məmmədov, Milli Məclisin sədri Oqtay Əsədov, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva, Arzu Əliyeva abidənin önünə tər güllər qoydular.

Dövlət və hökumət rəsmiləri, Milli Məclisin deputatları, nazirlər, komitə və şirkətlərin rəhbərləri, diplomatik korpusun nümayəndələri, dini konfessiyaların başçıları, habelə qırğından xilas ola bilmiş Xocalı sakinləri də abidənin önünə güllər düzdülər.

* * *

Ümumxalq yürüşündə Rusiyadan gələn nümayəndə heyəti də iştirak edirdi.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Rusiyadan gələn nümayəndə heyəti ilə görüşüb söhbət etdilər.

Heyətə Rusiya Federasiyası Dövlət Dumasının beynəlxalq əlaqələr üzrə komitəsinin sədr müavini, dünya şöhrətli idmançı İrina Rodnina, Dövlət Dumasının təhlükəsizlik və korrupsiya əleyhinə komitəsi sədrinin birinci müavini Dmitri Savelyev, Dövlət Duması Federal Məclisinin ailə, qadın və uşaq məsələləri üzrə komitəsinin sədr müavini Oksana Puşkina, Dövlət Dumasının dövlət əhəmiyyətli tikinti və qanunvericilik üzrə komitəsi sədrinin birinci müavini Mixail Yemelyanov, Dövlət Dumasının deputatları Tatyana Sibizova, Denis Parfenov və Aleksey Juravlev, Rusiya Siyasi Tədqiqatlar İnstitutunun direktoru, Azərbaycanın dostları qrupunun əlaqələndiricisi, tanınmış politoloq Sergey Markov və həmin institutun MDB ölkələri departamentinin rəhbəri Aleksey Bıçkov, hərbi ekspert, "Milli müdafiə" jurnalının baş redaktoru İqor Korotçenko, rusiyalı yazıçı, rejissor Aleksandr Rusnak, Rusiya Hökuməti yanında Maliyyə Universitetinin sosiologiya və politologiya fakültəsinin dekanı Aleksandr Şatilov daxildir.

Sonra Prezident İlham Əliyev Rusiyanın "Rossiya-24" kanalına müsahibə verdi. (Müsahibə qəzetin bugünkü nömrəsində dərc olunur).

* * *

Tarixi faktlar göstərir ki, əzəli Azərbaycan torpaqlarında - indiki Ermənistanda, Dağlıq Qarabağ bölgəsində və onun ətrafındakı yeddi rayonda yaşayan azərbaycanlılar erməni millətçilərinin davamlı olaraq etnik təmizləmə, soyqırımı və təcavüzkarlıq siyasətinə məruz qalaraq, doğma yurdlarından didərgin salınıb, qaçqın və məcburi köçkünə çevriliblər. "Böyük Ermənistan" xülyası ilə yaşayan ermənilər öz məqsədlərinə çatmaq üçün xarici himayədarların köməyi ilə müxtəlif vaxtlarda azərbaycanlılara qarşı terror və soyqırımı həyata keçirməklə etnik təmizləmə siyasəti aparıblar. Təkcə XX əsrdə azərbaycanlılar dörd dəfə - 1905-1906-cı, 1918-1920-ci, 1948-1953-cü və 1988-1993-cü illərdə soyqırımı və etnik təmizləmələrə məruz qalıblar.

SSRİ-nin süqutundan dərhal sonra isə yenicə yaranmış Ermənistan Respublikasının ilk addımları dövlət səviyyəsində zor tətbiqi və Azərbaycan Respublikasına qarşı təcavüzkar müharibə etməkdən ibarət oldu. Bütün bunların nəticəsində Azərbaycan Respublikası ərazilərinin təqribən beşdəbiri işğal edildi, zəbt olunmuş torpaqlarda və Ermənistanın öz ərazisində bir milyondan artıq köklü azərbaycanlı etnik təmizləməyə məruz qaldı. Bu təcavüz zamanı mülki azərbaycanlı əhaliyə qarşı çoxsaylı müharibə, insanlıq əleyhinə cinayətlər, o cümlədən soyqırımı aktları törədildi. Bu cinayətlərə görə məsuliyyəti məhz təcavüzkar tərəf olan Ermənistan Respublikası daşıyır.

⇨ Davamı 4-cü səhifədə

# "Xocalıya ədalət!" kampaniyası çərçivəsində "Ağrı gecəsi" adlı tədbir keçirilib

***Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva tədbirdə iştirak edib***





**Xocalı faciəsinin 27-ci ildönümü ilə əlaqədar Azərbaycan Respublikası Gənclər Fondunun təşkilatçılığı ilə fevralın 26-da Bakı Konqres Mərkəzində "Ağrı gecəsi" adlı tədbir keçirilib.**

"İki sahil" AZƏRTAC-a istinadən xəbər verir ki, "Xocalıya ədalət!" beynəlxalq kampaniyası çərçivəsində təşkil olunan tədbirdə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva iştirak edib.

Tədbirdə, həmçinin Prezident Administrasiyasının gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri Yusuf Məmmədəliyev, deputatlar, gənclər təşkilatlarının nümayəndələri iştirak ediblər.

Əvvəl faciə qurbanlarının xatirəsi yad olunub.

Gənclər Fondunun icraçı direktoru Fərid Cəfərov tədbirdə çıxış edərək bildirib ki, xalqımız son iki əsrdə erməni millətçiləri tərəfindən dəfələrlə soyqırımına məruz qalıb. Sonuncu dəhşətli faciə Xocalıda törədilib. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni təcavüzkarları Azərbaycanın Xocalı şəhərində bəşər tarixində misli görünməmiş soyqırımı həyata keçiriblər. Həmin gecə erməni silahlı birləşmələri keçmiş SSRİ-yə məxsus 366-cı motoatıcı alayın köməyi ilə Xocalı şəhərinə dörd tərəfdən hücum ediblər. Dinc əhaliyə qarşı həyata keçirilən bu soyqırımı nəticəsində bir gecədə 106-sı qadın, 63-ü uşaq, 70-i ahıl insanlar olmaqla 613 nəfər xüsusi qəddarlıqla qətlə yetirilib.

Xüsusi vurğulanıb ki, təkcə xalqımıza qarşı deyil, bütün insanlığa qarşı törədilmiş Xocalı soyqırımı haqqında həqiqətlərin dünyaya çatdırılması, bu faciənin xalqımıza qarşı soyqırımı aktı kimi tanınması üçün Azərbaycan dövləti bütün zəruri addımları atır. Bu sahədə məqsədyönlü fəaliyyət ümummilli lider Heydər Əliyev Azərbaycanda siyasi hakimiyyətə qayıdandan sonra başlanıb. Ulu Öndərin təşəbbüsü ilə Xocalı soyqırımına siyasi-hüquqi qiymət verilib. 2008-ci ildə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə başlanmış "Xocalıya ədalət!" beynəlxalq kampaniyası soyqırımının tanınmasında mühüm rol oynayıb. Bu istiqamətdə iş ardıcıl davam etdirilir və "Xocalıya ədalət!" kampaniyası çərçivəsində görülən işlərin miqyası ildən-ilə daha da genişlənir.

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədr müavini Fuad Hüseynov Xocalı faciəsinin tariximizin silinməz qanlı yaddaşı olduğunu diqqətə çatdırıb. O bildirib ki, 27 il əvvəl Xocalıda dinc soydaşlarımıza qarşı misli görünməmiş qanlı qırğın törədilib. Yüzlərlə soydaşımız Ermənistan silahlı qüvvələri tərəfindən amansızlıqla qətlə yetirilib. Bu qətliam barədə həqiqətlərin dünya ictimaiyyətinin diqqətinə çatdırılması istiqamətində sistemli işin uğurla nəticələndiyini deyən Fuad Hüseynov bu yöndə səylərin birləşdirilməsinin vacibliyini qeyd edib.

Xocalı faciəsinin canlı şahidləri Əsəd Fərəcov və Valeh Hüseynov soyqırımının dəhşətləri barədə tədbir iştirakçılarına məlumat veriblər.

Tədbirdə beynəlxalq münasibətlər üzrə tanınmış israilli ekspert Arye Qut və atası, yazıçı Əmir Qutun birgə qələmə aldıqları, ermənilərin azərbaycanlılara qarşı törətdikləri Xocalı soyqırımından bəhs edən "Ağrı" bədii-sənədli romanının təqdimatı olub.

Romanın həmmüəllifi Arye Qut əsərin yazılması səbəbləri haqqında danışaraq, əsas məqsədin Ermənistan silahlı qüvvələri tərəfindən Dağlıq Qarabağın işğalı və ötən əsrin ən dəhşətli etnik təmizləmələrindən biri olan Xocalı soyqırımı haqqında dünya ictimaiyyətinə geniş məlumat vermək olduğunu bildirib. O, əsərin real hadisələrə, Xocalı qətliamını yaşamış şahidlərin söylədikləri faktlara əsaslandığını bildirərək, kitabda ermənilərin azərbaycanlılara qarşı törətdikləri qanlı qırğın, vəhşiliklər və digər cinayətlərin üzə çıxarılması və günahkarların cəzalandırılması üçün çağırış edildiyini diqqətə çatdırıb.

Qeyd edək ki, "Ağrı" romanında XX əsrin faciəsi - Xocalı soyqırımı ətraflı təsvir olunub. Müəlliflər canlı şahidlərin - Xocalıda kütləvi qırğından sağ çıxa bilmiş sakinlərin ifadələri əsasında "əzabkeş" erməni xalqının iç üzünü açıb, Azərbaycan xalqının kədərini və faciəsini ürəkağrısı ilə təsvir ediblər. Əsərdə müxtəlif dinlərə və millətlərə mənsub olan, fərqli mühitlərdə böyümüş, taleyin qisməti ilə gözəl Bakı şəhərində rastlaşan iki gəncin - Polad və Röyanın sevgi tarixçəsi təsvir olunur. Bildirilir ki, Röya hələ uşaq ikən erməni cəlladlarının Azərbaycanın Xocalı şəhərinin dinc sakinlərinə qarşı törətdikləri amansız qırğının şahidi olub. O, xalqının zorla cəlb edildiyi müharibənin bütün itki və dəhşətlərini yaşayıb. Röya böyüdükdən sonra soyqırımı zamanı sağ qalmış həmyerlilərinə itkin düşmüş doğmalarını və yaxınlarını tapmaq üçün kömək etmək qərarına gəlir. O, var qüvvəsi ilə Xocalı soyqırımı barədə həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasına çalışır.

Sonda "Xocalı" faciəsi ilə bağlı film nümayiş etdirilib.

Bakı Konqres Mərkəzinin foyesində soyqırımı ilə bağlı rəsm sərgisi də təşkil olunub.








Prezident İlham Əliyev:

# Bu, xalqımızın sağalmaz dərdidir, xalqımıza qarşı törədilən soyqırımıdır, ötən əsrin ən böyük cinayətidir




Fevralın 26-da Xocalı soyqırımının 27-ci ildönümü ilə əlaqədar Bakıda keçirilən ümumxalq yürüşündə iştirak edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Rossiya-24" telekanalının müxbirinə müsahibə verib.

AZƏRTAC müsahibəni təqdim edir.

***Müxbir: Azərbaycan xalqının dərdinə şərikik. Həlak olanların ailələrinə, doğmalarına başsağlığı veririk. Bu gün Siz insanlara, Azərbaycan sakinlərinə, bu dərdi bölüşənlərə hansı sözlərlə müraciət edirsiniz?***

Prezident İlham Əliyev: Çox sağ olun ki, gəlmisiniz. Azərbaycan xalqının tarixindəki bu faciəli hadisəyə münasibətinizi bildirirsiniz. Bu, xalqımızın sağalmaz dərdidir, xalqımıza qarşı törədilən soyqırımıdır, ötən əsrin ən böyük cinayətidir. Yalnız Azərbaycan millətinə mənsub olduqlarına görə günahsız insanlar - qocalar, qadınlar və uşaqlar həlak olmuş, zərər çəkmişlər. Azərbaycan xalqı heç vaxt bu faciəni unutmayacaq, həmişə xatırlayacaq. Bu, bizim yaddaşımızda həmişəlik qalacaq. Əsas odur ki, belə faciələr daha heç vaxt təkrar olunmasın. Daha heç vaxt heç bir xalqa qarşı belə dəhşətli soyqırımı hadisəsi, milli əlamətə görə qırğın törədilməsin. Azərbaycan dövləti, xalqı həlak olanların xatirəsini əziz tutur, yad edir və onların xatirəsi bizim üçün müqəddəsdir. Həmin faciəli gecədə xilas olanlar həmişə bizim üçün fiziki zədələr, mənəvi yaralar alan, həmin qətliamı yaşayan insanlar kimi qalacaqlar. Biz bu adamların aqibətini yüngülləşdirmək üçün əlimizdən gələni edirik, dövlət onlara kömək edir və edəcək. Bir daha demək istəyirəm, biz hamımız çalışmalıyıq ki, belə faciələr bəşəriyyət tarixində bir daha olmasın.

***Müxbir: Sağ olun, cənab Prezident.***

Prezident İlham Əliyev: Çox sağ olun.

***Müxbir: Çox sağ olun. Dərdinizə şərikik.***

## PREZİDENTİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 26-da Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana telefonla zəng edib.

Dövlətimizin başçısı Prezident Rəcəb Tayyib Ərdoğana ad günü münasibətilə təbriklərini çatdırıb, qardaş Türkiyənin inkişafı naminə ona yeni-yeni uğurlar və möhkəm cansağlığı arzulayıb.

Türkiyə Prezidenti göstərilən diqqətə və təbrikə görə Prezident İlham Əliyevə təşəkkür edib.

Eyni zamanda Prezident Rəcəb Tayyib Ərdoğan Xocalı soyqırımı zamanı ermənilərin günahsız insanların qətlə yetirilməsini bir daha pisləyərək, bu faciə ilə bağlı Azərbaycan Prezidentinə və xalqımıza başsağlığı verib.

Dövlətimizin başçısı başsağlığına görə minnətdarlığını bildirib.

Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğan ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin bundan sonra da uğurla inkişaf edəcəyinə və möhkəmlənəcəyinə əminliklərini ifadə ediblər.

## MƏCBURİ KÖÇKÜNLƏR VƏ ONLARA BƏRABƏR TUTULAN ŞƏXSLƏR ÜÇÜN VAHİD AYLIQ MÜAVİNƏTİN MƏBLƏĞİ 50 FAİZ ARTIRILIB

Prezident İlham Əliyev məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər üçün vahid aylıq müavinətin artırılması haqqında Sərəncam imzalayıb. Sərəncamda qeyd olunur ki, məcburi köçkünlər və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsini gücləndirmək və onlara dövlət qayğısını artırmaq məqsədilə məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər üçün vahid aylıq müavinətin məbləği 2019-cu il aprelin 1-dən 50 faiz artırılsın.

Nazirlər Kabinetinə Azərbaycan Respublikası Prezidentinin aktlarının bu sərəncama uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Prezidentinə təqdim etmək; Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu sərəncama uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Prezidentinə məlumat vermək; mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu sərəncama uyğunlaşdırılmasını nəzarətdə saxlamaq və bunun icrası barədə beş ay müddətində Azərbaycan Prezidentinə məlumat vermək; bu sərəncamdan irəli gələn digər məsələləri həll etmək tapşırılıb.

Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu sərəncama uyğunlaşdırılmasını təmin edib Nazirlər Kabinetinə məlumat verəcək.

# Xocalı soyqırımı ilə bağlı ümumxalq yürüşü

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV YÜRÜŞDƏ İŞTİRAK EDİB





⇨ Əvvəli 2-ci səhifədə

Müharibənin gedişinin ən faciəvi səhifəsi Xocalı şəhərinin işğalı oldu. Azərbaycanın Dağlıq Qarabağ bölgəsində yerləşən bu şəhərdə müharibədən əvvəl 7 min insan yaşayırdı. 1991-ci ilin oktyabrından şəhər Ermənistan silahlı qüvvələri tərəfindən tamamilə mühasirəyə alındı. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə kütləvi artilleriya zərbələrinin ardınca Ermənistan silahlı qüvvələri keçmiş SSRİ-nin 366-cı motoatıcı alayının köməyi ilə Xocalını işğal etdilər. İşğalçılar Xocalını darmadağın edərək xüsusi amansızlıqla onun dinc əhalisinin soyqırımını törətdilər.



Bu müdhiş soyqırımı zamanı 613 nəfər, o cümlədən 106 qadın, 63 uşaq və 70 qoca xüsusi qəddarlıqla öldürülüb, 1275 insan əsir və girov götürülərək işgəncələrə məruz qalıb. Onlardan 150 nəfərin, o cümlədən 68 qadın və 26 uşağın taleyi bu günədək məlum deyil. Qırğın zamanı 487 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri alıb. Həmçinin 8 ailə tamamilə məhv edilib, 130 uşaq valideynlərindən birini, 25 uşaq isə hər iki valideynini itirib. Həmin insanlar yalnız etnik mənsubiyyətlərinə - azərbaycanlı olduqlarına görə amansızcasına öldürülüb, işgəncələrə məruz qalıb və şikəst ediliblər. Ermənistan silahlı birləşmələri tərəfindən Xocalı şəhərinin işğal edilməsi ilə əlaqədar Azərbaycan dövlətinə və vətəndaşlarına 170 milyon ABŞ dollarından artıq ziyan vurulub.





Ermənistan tərəfindən Azərbaycan Respublikasına qarşı başlanan müharibənin səbəbləri və nəticələrinin ümumi qiymətləndirilməsi, Xocalıdakı faciəvi hadisələrin bütün mövcud faktları qəti şəkildə sübut edir ki, Azərbaycanın bu şəhərində törədilmiş cinayətlər sıradan və təsadüfi hərəkət deyil, Ermənistanın sistemli zorakılıq siyasətinin tərkib hissəsi olub. Xocalıdakı mülki insanların məqsədyönlü qırğını, sadəcə, azərbaycanlı olduqları üçün onların kütləvi məhvinə yönəlmişdi. Beynəlxalq hüquqa görə belə hərəkətlər "soyqırımı" anlayışına uyğundur və dünya ictimaiyyəti tərəfindən bu cür tanınmalıdır.

Azərbaycan Respublikasına qarşı davam edən təcavüz fonunda Ermənistan tərəfindən törədilmiş müharibə, insanlıq əleyhinə cinayətlər və Xocalı soyqırımı insan hüquqları və beynəlxalq humanitar hüququn, xüsusilə 1949-cu il Cenevrə konvensiyaları, Soyqırımı cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında Konvensiya, Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakt, İqtisadi, Sosial və Mədəni Hüquqlar haqqında Beynəlxalq Pakt, İşgəncələrə və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan davranış və cəza növlərinə qarşı Konvensiya, İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında beynəlxalq Konvensiya, Uşaq hüquqları haqqında Konvensiya və İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiyanın ciddi şəkildə pozulmasıdır.

Xocalı haqqında həqiqətlərin dünyaya çatdırılması, bu faciənin xalqımıza qarşı soyqırımı aktı kimi tanınması üçün Azərbaycan dövləti bütün zəruri addımları atır. Bu sahədə məqsədyönlü fəaliyyət ümummilli lider Heydər Əliyev Azərbaycanda siyasi hakimiyyətə qayıdandan sonra başlanıb. Ulu Öndərin təşəbbüsü ilə Xocalı soyqırımına siyasi-hüquqi qiymət verilib, fevralın 26-sı Xocalı Soyqırımı Günü elan edilib. 2008-ci ildə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə başlanmış "Xocalıya ədalət!" beynəlxalq kampaniyası bu istiqamətdə təbliğat işini daha da fəallaşdırıb. Faciə ilə əlaqədar dəhşətli faktlar bu kampaniya çərçivəsində aparılan işlər sayəsində geniş beynəlxalq ictimaiyyətə çatdırılıb, planetin bütün guşələrində milyonlarla insan erməni millətçilərinin əsl simasına bələd olub, biliblər ki, ermənilər öz sərsəm ideyalarını həyata keçirmək naminə heç nədən, hətta uşaqları belə qətlə yetirməkdən çəkinmirlər. Xocalı soyqırımının dünya miqyasında tanıdılması istiqamətində aparılan sistemli işin nəticəsidir ki, İslam Əməkdaşlıq Təşkilatı Parlament İttifaqının, Meksika, Pakistan, Çexiya, Peru, Kolumbiya, Panama, Honduras, Sudan, Qvatemala və Cibuti parlamentlərinin müvafiq sənədlərində Xocalıda törədilmiş kütləvi qətllərin soyqırımı aktı olduğu təsdiq edilib. Rumıniya, Bosniya və Herseqovina, Serbiya, İordaniya, Sloveniya, Şotlandiya parlamentləri, eləcə də ABŞ-ın 22 ştatının icra və qanunverici orqanları Xocalı faciəsini qətliam kimi qiymətləndirərək qətiyyətlə pisləyiblər. Avropa İnsan Haqları Məhkəməsi 2010-cu il 22 aprel tarixli qərarında Xocalının azərbaycanlılardan ibarət mülki əhalisinin qətlə yetirilməsinin "müharibə cinayətləri və ya insanlığa qarşı cinayətlər kimi qiymətləndirilə bilən xüsusilə ağır əməllər" olduğunu müəyyən edib.

Hər il olduğu kimi, bu il də Heydər Əliyev Fondunun dəstəyi ilə dünyanın müxtəlif ölkələrində Xocalı soyqırımı qurbanlarının xatirəsini anma mərasimləri keçirilib. Bu aksiyaların iştirakçılarına Fond tərəfindən hazırlanmış, Qarabağın və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tarixindən bəhs edən materiallar, bukletlər, fotoalbomlar və kitablar paylanılıb. Aksiyalar çərçivəsində ermənilərin vəhşiliklərindən bəhs edən sənədli filmlər nümayiş etdirilib, rəsm sərgiləri təşkil olunub. Qardaş Türkiyədə, ABŞ-da, Almaniyada, Avstriyada, Belçikada, Gürcüstanda, Hollandiyada və digər ölkələrdə keçirilən mitinqlər, anım tədbirləri, konfranslar, sərgilər, müsabiqələr ictimaiyyət arasında böyük əks-səda doğurub.

Xocalı soyqırımının 27-ci ildönümü ilə əlaqədar Bakıda növbəti ümumxalq yürüşü dünya ictimaiyyətinə bir mesajdır ki, Azərbaycan öz torpaqlarında ikinci erməni dövlətinin yaradılmasına imkan verməyəcək, ərazi bütövlüyünü bərpa edəcək. Hər kəsə aydın olmalıdır ki, Xocalı soyqırımının törədənlərin cəzasız qalması, münaqişənin nizama salınmaması nəinki Cənubi Qafqaz regionunda, həm də bütün dünyada sülh və sabitlik üçün təhlükə törədir. Bunu 2016-cı il aprel ayının əvvəllərində cəbhə xəttində baş vermiş hadisələr bir daha sübut edir. Ermənistan silahlı qüvvələri növbəti təxribatlara əl ataraq, cəbhə xətti boyunca yerləşən yaşayış məntəqələrini güclü atəşə tutdular. Azərbaycan Silahlı Qüvvələri dinc sakinlərin təhlükəsizliyini təmin etmək üçün cavab tədbirləri görməyə məcbur oldu. Genişmiqyaslı hərbi əməliyyatlar nəticəsində Azərbaycan torpaqlarının bir hissəsini işğalçılardan təmizlədi. Xalqımızın, dövlətimizin, ordumuzun mübarizə əzminin yenilməzliyini təsdiq edən 2016-cı ilin Aprel döyüşləri və ötən ilin mayında Naxçıvan əməliyyatı sübut etdi ki, torpaqlarımız yağı düşməndən azad ediləcək, şəhidlərimizin qanı yerdə qalmayacaq.

* * *

***Bütün gün ərzində Xocalı soyqırımı qurbanlarının abidəsi önünə insan axını davam etdi. On minlərlə insan soyqırımı abidəsini ziyarət etdi. Abidənin önünə tər çiçəklər qoyuldu, şəhidlərin ruhuna dualar oxundu.***

# "Qarabağnamə - tarixin səhifələri"










**Fevralın 26-da Müasir İncəsənət Muzeyində Xalq rəssamı, professor Arif Hüseynovun Xocalı soyqırımının 27-ci ildönümü ilə əlaqədar "Qarabağnamə - tarixin səhifələri" adlı sənədli-bədii qrafika sərgisi açılıb.**

"İki sahil" AZƏRTAC-a istinadən xəbər verir ki, Heydər Əliyev Fondunun dəstəyi ilə reallaşan sərgidə rəssamın 50-dən çox sənədli-bədii qrafika əsəri nümayiş olunur.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyev sərgi ilə tanış olub.

Müasir İncəsənət Muzeyinin müdiri Xəyyam Abdinov deyib ki, Xocalı soyqırımının 27-ci ildönümü ilə əlaqədar müxtəlif anım tədbirləri keçirilir. Heydər Əliyev Fondunun dəstəyi ilə ölkəmizdə və xaricdə təşkil edilən bu cür tədbirlər sayəsində dünya ictimaiyyətinin Xocalıya olan diqqəti daha da artır. Xalq rəssamı Arif Hüseynovun Qarabağ mövzusunda əsərlərindən ibarət bugünkü sərgi də Heydər Əliyev Fondunun dəstəyi ilə təşkil edilib və buna görə Fondun rəhbərliyinə təşəkkür edirik.

Sərginin əhəmiyyətindən danışan X.Abdinov deyib ki, ekspozisiyada nümayiş olunan əsərlər tarixi materiallara əsaslanır. Bu əsərlərdə Alban kilsəsi, tarixi yerlərin mənzərələri və tarixi şəxsiyyətlərin portretləri təsvir olunub. Əsərlərdə Türkmənçay müqaviləsi, Alban kilsələrinin dəyişdirilməsi, Xocalıya aid kompozisiyalar əks etdirilir.

Əməkdar incəsənət xadimi Ziyadxan Əliyev vurğulayıb ki, xalqımızın tarixində yaşanan kədərli və fərəhli hadisələrə hər zaman sənətkarlarımız tərəfindən bədii münasibət göstərilib. Xocalı soyqırımı xalqımızın tarixində elə dəhşətli hadisələrdəndir ki, ona münasibət göstərməmək qeyri-mümkündür.

"Xalq rəssamı Xanlar Əhmədov, tanınmış kinorəssam Nazim Məmmədov və digər fırça ustaları bu hadisələri öz əsərlərində təsvir ediblər. Arif Hüseynovun əsərlərində tarixə, yaşanılan hadisələrə sənədli münasibət mövcuddur. Düşünürəm ki, belə əsərlərin ölkəmizin hüdudlarından kənarda da nümayişi vacibdir. Bu əsərlər Xocalı faciəsinin dünyaya tanıdılması və təbliğində yardımçı ola bilər. Sərginin təşkil olunmasına verdiyi dəstəyə görə Heydər Əliyev Fondunun rəhbərliyinə minnətdarlığımızı bildiririk", - deyə Ziyadxan Əliyev bildirib.

Azərbaycan Rəssamlar İttifaqının sədri, Xalq rəssamı Fərhad Xəlilov söyləyib ki, sərgidəki əsərlərdə xalqımızın ağrı-acıları əks olunub. Belə sərgilər mütəmadi olaraq təşkil edilməlidir.

Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının prorektoru, Xalq rəssamı Səhlab Məmmədov, kinorejissor, Xalq artisti Oqtay Mirqasımov çıxış edərək sərginin əhəmiyyətini vurğulayıb, müəllifə yeni yaradıcılıq uğurları arzulayıblar.

Sonra tədbirin iştirakçıları sərgi ilə tanış olublar.

Xalq rəssamının sərgidə nümayiş etdirilən "I Pyotrun məktubu", "Türkmənçay müqaviləsi", "Güllələnmiş heykəllər", "Qarabağ müharibəsi", "Pənahəli xan", "Xalq musiqiçiləri" kimi əsərlərində tarixi həqiqətlərin rəssam təxəyyülü ilə ərsəyə gətirdiyi təsvirlər kifayət qədər cəlbedici və yaddaqalandır. Sərgidəki bütün əsərlər qravüra janrında işlənilib. Sərgi bütövlükdə tarixi faktlar əsasında qurulub və maarifləndirici xarakter daşıyır.

Uzun illərdir ki, rəssam vaxtının bir hissəsini gənc nəslin nümayəndələri, uşaq və yeniyetmələrlə işləməyə sərf edir. Azərbaycan təsviri incəsənətinin gələcəyi üçün yeni rəssamlar hazırlayır. Rəssam öz əsərləri ilə Azərbaycan xalqının zəngin daxili dünyasını və xüsusiyyətlərini təsvir edir. Əsərlər tarixi materiallara əsaslanır. Silsiləyə daxil olan əsərlərdə Alban kilsəsi, tarixi faktlar, tarixi yerlərin mənzərələri və tarixi şəxsiyyətlərin portretləri təsvir olunur.

# "Xocalıya ədalət!" kampaniyası çərçivəsində Suraxanıda ağacəkmə aksiyası

## Heydər Əliyev Fondunun vitse-prezidenti, "Xocalıya ədalət!" kampaniyasının təşəbbüskarı Leyla Əliyeva aksiyada iştirak edib





Fevralın 26-da "Xocalıya ədalət!" beynəlxalq maarifləndirmə kampaniyası çərçivəsində Bakının Suraxanı rayonundakı "Neftçilər" parkında ağacəkmə aksiyası keçirilib.

"İki sahil" AZƏRTAC-a istinadən xəbər verir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti, "Xocalıya ədalət!" kampaniyasının təşəbbüskarı Leyla Əliyeva aksiyada iştirak edib.

Suraxanı rayon gənclərinin və Heydər Əliyev Fondunun təşəbbüsü ilə yaradılan Regional İnkişaf İctimai Birliyinin nümayəndələrinin iştirak etdikləri aksiyada Xocalı soyqırımı qurbanlarının xatirəsini əbədiləşdirmək məqsədilə 613 ağac əkilib.

Aksiyada 200-dən çox gənc iştirak edib.

"Xocalıya ədalət!" beynəlxalq maarifləndirmə kampaniyası Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə 2008-ci ildən həyata keçirilir. Kampaniya Xocalı soyqırımının, Ermənistan-Azərbaycan münaqişəsinin tarixi səbəbləri və nəticələri, həmçinin Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən qeyd-şərtsiz və dərhal çıxarılmasının zəruriliyi ilə bağlı beynəlxalq maarifləndirmənin artırılması məqsədi daşıyır. Kampaniyanın fəaliyyəti, həmçinin Xocalı soyqırımı qurbanlarının xatirəsinin yad edilməsinə, sağ qalmış ailələrə dəstək göstərilməsinə, bu hadisələrin yaddaşlarda yaşamasına, xüsusən də gənc nəsil tərəfindən unudulmamasına yönəlib. Kampaniya çərçivəsində təşkil edilən tədbirlərdə əsas diqqət kütləvi qırğınlara, etnik təmizləmə, irqi və ya dini ayrı-seçkilik hallarına qarşı güclü müqaviməti nümayiş etdirməyə, Xocalı soyqırımı qurbanları ilə həmrəyliyi ifadə etməyə və Xocalıda azərbaycanlılara qarşı törədilmiş cinayətlərə görə cəzasızlıq halları ilə mübarizəyə istiqamətlənib. Bu kampaniya bir çox ölkələrdə səmərəli şəkildə fəaliyyət göstərir.

*Əli Həsənov:*

# Xocalı soyqırımını törədənlər illərlə Ermənistanı idarə etdilər


BETA EURO 6.04 DOLAR 5.31 BIST 100 105,082.30 ALTIN 1,328.18 Canlı EDITION

AA TÜRKİYE DÜNYA EKONOMİ SPOR KÜLTÜR SANAT ANALİZ İNFOGRAFİK VİDEO FOTOĞRAF

DÜNYA

'Hocalı Soykırımı'na imza atanlar yıllarca Ermenistan'ı yönetti'

Azerbaycan Cumhurbaşkanı Yardımcısı Ali Hasanov, Ermenilerin 26 Şubat 1992'de yaptığı Hocalı Katliamının 27. yılında AA muhabirine konuştu.

Mehmet Kara | 26.02.2019

Analiz

27. yılında Hocalı soykırımı: Nedenler ve sonuçlar

BAE ve Suudi Arabistan Kızıldeniz'i bir içdeniz haline getirmeye çalışıyor

Suudi medyasının Türkiye karşıtlığı ve acınası hali

AB çıkarları için 'demokrasiyi' askıya aldı

Cezayir'de değişim mümkün mü?

İstanbul

Azerbaycan Cumhurbaşkanı Yardımcısı Ali Hasanov, Ermenilerin 26 Şubat 1992'de 613 sivili öldürdüğü Hocalı Katliamı'na ilişkin, "Şubat ayının 25'i gecesi Ermeniler, Soyvet tankları ve Soyvetler Birliği'nin 366. Alayının da desteğiyle kasabaya baskın yaptı. Hocalı bir gecede yeryüzünden silindi. Kaçmayı başaramayan çoğunluğu kadın, çocuk ve yaşlılardan oluşan 613 kişi vahşice katledildi. 300'den fazla kişi esir alındı. Bu kişilerden 150'den fazlasına ne olduğu hala belli değil. Ermeniler, sivillerin yaşadığı bu kasabada insanlık dışı bir

Veri politikasındaki amaçlarla sınırlı ve mevzuata uygun şekilde çerez konumlandırmaktayız. Detaylar için "veri politikamızı" inceleyebilirsiniz. TAMAM

**Fevralın 25-dən 26-na keçən gecə ermənilər sovet tankları və Sovet İttifaqının 366-cı motoatıcı alayının dəstəyi ilə Xocalı şəhərinə hücum etdilər. Xocalı şəhəri bir gecədə yer üzündən silindi, 613 nəfər, o cümlədən qadınlar, uşaqlar və yaşlılar vəhşicəsinə qətlə yetirildi. Yüzlərlə sakin əsir alındı. Onlardan 150-dən çoxunun taleyi hələ də məlum deyil. Ermənilər dinc əhalinin yaşadığı şəhərdə insanlığa sığmayan dəhşətli qətliam törətdilər. Xocalı soyqırımını törədənlər sonradan Ermənistanda illərlə baş nazir və prezident vəzifələrində ölkəni idarə etdilər. Hətta Ermənistanın sabiq prezidenti Serj Sarkisyan Xocalıdakı qətliama israrla bəraət qazandıraraq, o gecə törətdiklərini etiraf etdi.**

"İki sahil" AZƏRTAC-a istinadən xəbər verir ki, bunu Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi-şöbə müdiri, professor Əli Həsənov Xocalı soyqırımının 27-ci ildönümü ilə əlaqədar Türkiyənin Anadolu Agentliyinə müsahibəsində deyib.

İyirmi yeddi il əvvəl törədilən Xocalı faciəsinin ermənilərin son 200 ildə azərbaycanlılara qarşı törətdikləri soyqırımlarından biri olduğunu vurğulayan Əli Həsənov ermənilərin Qafqazda möhkəmlənmək üçün həyata keçirdikləri etnik təmizləmə siyasətinin bunun ən mühüm səbəbi olduğunu bildirib. Ermənilərin bu siyasəti havadarlarının dəstəyi ilə həyata keçirdiklərini qeyd edən Prezidentin köməkçisi deyib: "Tarixi faktlar göstərir ki, azərbaycanlılar erməni millətçilərinin davamlı olaraq etnik təmizləmə, soyqırımı və təcavüzkarlıq siyasətinə məruz qalıb, öz tarixi torpaqlarından didərgin salınıb, qaçqın və məcburi köçkünə çevriliblər. "Böyük Ermənistan" xülyası ilə yaşayan ermənilər öz məqsədlərinə çatmaq üçün xarici himayədarların köməyi ilə müxtəlif vaxtlarda soyqırımları törədiblər. Təkcə XX əsrdə azərbaycanlılar dörd dəfə - 1905-1906-cı, 1918-1920-ci, 1948-1953-cü və 1988-1993-cü illərdə soyqırımı və etnik təmizləmələrə məruz qalıblar. 1915-1918-ci illərdə ermənilər Bakıda, Qubada və Azərbaycanın digər bölgələrində Xocalı qətliamından daha qanlı və insan tələfatı baxımından daha böyük soyqırımları törədiblər. Ermənilər həmin dövrdə təkcə Bakıda təxminən 20 min nəfəri qətlə yetiriblər. Daha sonra 1948-1953-cü illərdə Sovet İttifaqı tərəfindən 150 min azərbaycanlı Ermənistandan deportasiya edilib. Bununla da Ermənistanda heç bir türkün və müsəlmanın qalmaması ilə bağlı məqsədlərinə çatmaq yolunda böyük addım atılıb".

Ermənilərin 1988-ci ildən Sovet İttifaqının dağılmasına qədər olan dövrdə azərbaycanlılara qarşı açıq şəkildə torpaq iddiası qaldırdıqlarını bildirən Əli Həsənov bu işğalçılıq siyasəti nəticəsində 1988-1994-cü illərdə Dağlıq Qarabağ bölgəsinə və ətraf rayonlara fasiləsiz hücumların olduğunu vurğulayıb. İşğal nəticəsində bir milyondan çox azərbaycanlının məcburi köçkünə çevrildiyini, yaşayış məntəqələrinin yerlə-yeksan edildiyini, kütləvi qətliamların törədildiyini deyən Prezidentin köməkçisi Xocalı soyqırımının bunların arasında ən qanlı faciə olduğunu deyib.

Xocalı soyqırımı ilə bağlı həqiqətlərin bütün dünyaya çatdırılmasında Anadolu Agentliyinin də rolunu xüsusi vurğulayan Əli Həsənov deyib: "Qətliamdan sonra bütün dünya mediası yaşanan dəhşəti öz səhifələrində təqdim etdi. Azərbaycan həmin dövrdə informasiya blokadasında idi. Bu blokada Anadolu Agentliyinin dəstəyi ilə yarıldı və soyqırımı həqiqətləri dünyaya çatdırıldı. 1993-cü ildə ulu öndər Heydər Əliyevin Azərbaycan xalqının dəstəyi ilə Prezident seçilməsindən sonra ölkəmiz sürətlə inkişaf etməyə başladı. Bütün sahələrdə olduğu kimi, media sahəsində də əsaslı dəyişikliklər baş verdi. İndi Azərbaycan mediası dünyanın ən güclü media qurumları ilə rəqabət aparacaq səviyyədədir".

Ermənistanın işğalçılıq siyasətini bu gün də davam etdirdiyini bildirən Əli Həsənov BMT, Avropa İttifaqı, Avropa Şurası və NATO kimi beynəlxalq qurumların qərar və qətnamələrinin tələblərinin yerinə yetirilmədiyini diqqətə çatdıraraq, Ermənistanın işğal etdiyi əraziləri qeyd-şərtsiz tərk etməsinin vacibliyini vurğulayıb.

"Ermənistanın işğalçılıq siyasətini davam etdirməsi hər an qanlı müharibəni alovlandıra bilər", - deyən Əli Həsənov 2016-cı ilin Aprel döyüşlərinin yeni bir müharibənin necə ağır nəticələr doğura biləcəyini göstərdiyini bildirib: "2016-cı ilin Aprel döyüşləri Azərbaycan Ordusunun qısa müddətdə öz torpaqlarını işğaldan azad etmək gücündə olduğunu Ermənistana və bu ölkənin himayədarlarına göstərdi. Bu gün müasir silahlara sahib olan Azərbaycan Ordusu dünyanın ən güclü və hazırlıqlı ordularından biridir. Ermənistanın işğalçılıq siyasətinin davam etməsi hər an qanlı müharibənin fitilini alovlandıra bilər. Bu müharibədə on, bəlkə də yüz minlərlə insan həlak ola bilər. Amma biz münaqişənin beynəlxalq hüququn norma və prinsipləri əsasında sülh yolu ilə həllinin tərəfdarıyıq. BMT, Avropa İttifaqı, Avropa Şurası, İslam Əməkdaşlıq Təşkilatı kimi mötəbər beynəlxalq təşkilatlar Ermənistanı işğalçı dövlət olaraq tanıyıb, işğal altındakı torpaqların azad olunmasını tələb ediblər. Lakin ermənilər beynəlxalq hüquq normalarına, bu qərar və qətnamələrə hörmətsizlik göstərirlər".

Türkiyə ilə Azərbaycan arasında sarsılmaz əməkdaşlığın olduğunu vurğulayan Əli Həsənov 2007-ci ildə Bakıda keçirilən qurultayın bunun konkret göstəricisi olduğunu bildirib. İkitərəfli əlaqələrin dövlətlərimizin başçılarının birgə səyləri ilə daha da gücləndiyini qeyd edən Prezidentin köməkçisi deyib: "Azərbaycan dövləti ulu öndər Heydər Əliyevin hakimiyyəti dövründə, indi isə Prezident İlham Əliyevin rəhbərliyi ilə Xocalı soyqırımının dünyada tanıdılması, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması üçün bütün lazımi addımları atıb və atmağa davam edir. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Azərbaycan Prezidenti İlham Əliyev "Bir millət, iki dövlət" olduğumuz kimi, "iki dövlət, bir lobbi", "iki dövlət, bir diaspor" istiqamətində qəti iradə nümayiş etdirirlər.

2007-ci ildən etibarən bütün dünyada Türkiyə və Azərbaycanı təmsil edən lobbi və diasporlar həm Ermənistanın uydurma soyqırımı iddialarına qarşı, həm də Xocalı soyqırımının dünyaya çatdırılması məsələsində birlikdə mübarizə aparır. Buna dövlətlərimiz, ziyalılarımız, universitetlərimiz, tələbələrimiz, bütün sosial media vasitələrimiz və dövlət təşkilatlarımız dəstək verir. Erməni diasporu və dövləti, qondarma soyqırımı iddialarını davamlı olaraq gündəmdə saxlamaqla, əslində, Xocalı soyqırımını unutdurmağa çalışır. Hər il beynəlxalq platformalarda ermənilərin soyqırımı iddialarının yalan olduğunu, əslində ermənilərin Anadolu türklərinə və azərbaycanlılara qarşı qırğınlar törətdikləri ilə bağlı bütün həqiqətləri dünyaya çatdırırıq. Dünya artıq bir virtual informasiya şəbəkəsinə çevrilib. Türkiyə və Azərbaycan sosial şəbəkələrdəki mübarizədə birgə hərəkət etməlidir. Biz, iki qardaş dövlət olaraq, birlikdə fəaliyyət göstərməyin gücümüzə güc qatacağına inanırıq".

Əli Həsənov qondarma soyqırımı iddialarını qəbul edən ölkələrdə ermənilərin lobbiçilik fəaliyyəti barədə danışaraq deyib: "Bəzi Avropa dövlətləri Ermənistanın heç bir sübutu olmayan qondarma soyqırımı iddialarını tanıyır. Lakin 27 il əvvəl bütün dünyanın gözləri qarşısında törədilən Xocalı qətliamını hansı səbəbdən görmür? Amma biz burada da işləri dayandırmamalıyıq. Bu dövlətlərin ictimaiyyəti, parlamenti, vətəndaş təşkilatları və xalqı ilə çalışmalıyıq. Biz konfranslar təşkil edərək onlara faktları çatdırmalıyıq. Biz ermənilərin soyqırımı iddialarının yalan olduğunu və 27 il əvvəl Xocalıda baş verənlərin həqiqət olduğunu anlatmalıyıq. Bunu hamımız birlikdə etməliyik. Azərbaycan diasporunun güclü olduğu yerdə azərbaycanlılar, türk diasporu güclü olan yerdə türklər bu məsələni gündəmdə saxlamalıdırlar".

İslam dünyasına çağırış edən Əli Həsənov söhbətini bu sözlərlə yekunlaşdırıb: "Bu gün Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Azərbaycan Prezidenti İlham Əliyev beynəlxalq platformalarda Türk-İslam dünyasının maraqlarının qorunması və mövcud problemlərin həlli üçün birlikdə hərəkət edir. Bütün dünyada müsəlmanlara qarşı təzyiqlərə ən çox sinə gərən ölkələrin Türkiyə və Azərbaycan olması inkar edilə bilməz bir həqiqətdir. İslam dünyasının mövcud problemlərinə qarşı da heç bir zaman laqeyd qalmadıq. İslam dünyasındakı dövlətlər də bizim problemlərimizə biganə qalmamalı, həm Xocalı soyqırımının tanınmasında, həm də ermənilərin qondarma soyqırımı iddialarına qarşı mübarizədə iştirak etməlidir. Unutmamalıyıq ki, ermənilər işğal etdikləri Azərbaycan torpaqlarında həm müsəlman qırğını törədib, həm də müsəlmanların müqəddəs yerlərini dağıdıblar".

*Dmitri Savelyev:*

# Xocalının daşları da haray çəkir

Zaman bizi Xocalıda baş vermiş faciəli hadisələrdən uzaqlaşdırır, lakin 27 il bundan əvvəl baş vermiş bu faciə fundamental bəşəri dəyərləri qiymətləndirən hər kəsin qəlbində sağalmaz yara kimi qalır.

RF Dövlət Dumasının deputatı, Rusiya-Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun rəhbəri Dmitri Savelyev AZƏRTAC-ın müxbiri ilə söhbətində Xocalıda törədilmiş soyqırımının ibrət dərsləri barədə danışıb.

***-Dmitri İvanoviç, Sizin fikrinizcə Xocalıda törədilmiş qırğın Dağlıq Qarabağ münaqişəsinin daha geniş miqyas alması üçün bir növ proloq olmayıbmı?***



-Şübhəsiz belədir. Vəhşi heyvanın dişinə insan qanı dəyəndə həmin heyvan adamyeyənə çevrildiyi kimi, Xocalıda dinc sakinləri qətlə yetirənlərin cəzasız qalması da (hamıya xatırlatmalıyam ki, aralarında qadınlar, uşaqlar və qocalar da olan 613 nəfərin qətlə yetirilməsindən söhbət gedir) təcavüzkarların əl-ayağını açdı və döyüş əməliyyatları Dağlıq Qarabağın hüdudlarından kənara yayıldı. Bu hadisə indiyə qədər nizamlanmamış qarşıdurma üçün bir bəhanə oldu. Azərbaycanın yeddi rayonu, yəni respublika ərazisinin beşdə bir hissəsi işğal edildi, bir milyondan çox azərbaycanlı doğma yurdunu tərk etməyə məcbur oldu.

Münaqişənin gedişində 20 min nəfər həlak olub, daha 50 min nəfər yaralanaraq əlil olub. Bu yaxınlarda keçirilmiş birgə tədbirlərin birində Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin sektor müdiri Yaşar Hüseynli sözün həqiqi mənasında mədəni vəhşilik faktlarını misal göstərdi: ermənilər Qarabağ torpağındakı məzarlıqları dağıdır, tarixi, dini və mədəni abidələri məhv edirlər. Belə qanunsuz əməllərin əsası məhz Xocalıda qoyulub.

***-İndi vaxtaşırı deyirlər ki, guya faciənin miqyası süni şəkildə şişirdilib, guya hadisələr əslində Azərbaycanın dediyi kimi olmayıb...***

-Belələri nə istəsələr deyə bilərlər, lakin ortada şahid ifadələri və Xocalıda törədilmiş qırğının təhqiqatına aid materiallar var. Hüquq-mühafizə orqanları yeddi minə yaxın istintaq əməliyyatı və səkkiz min ekspertiza aparıb, dörd mindən çox insanı istintaq edib, bütün bunlar faciənin obyektiv mənzərəsini təsvir etməyə imkan verib. Bundan əlavə, mübahisəyə yer qoymayan fotosənədlər də saxlanıb: rusiyalı fotoqraf Viktoriya İvleva Xocalı küçələrində cəsədlərin fotoşəkillərini çəkib, jurnalist Çingiz Mustafayev isə faciədən dərhal sonra öz həyatını riskə məruz qoyaraq hadisə yerindən reportajlar aparıb. Bu başqa məsələdir ki, dünyanın güc mərkəzləri özlərinin məhdud maraqları naminə çox vaxt ikili standartlar siyasətinə əl atır və Xocalıda etnik təmizləmələr faktı barədə susmağa çalışırlar. Hərçənd, milyonlarla günahsız insanın həyatı bahasına başa gəlmiş İkinci Dünya müharibəsindən sonra dünya belə faciələrin nəticələrini başa düşməli idi. Təəssüf ki, Xocalıda törədilənlərə görə məsuliyyətə cəlb edilməli insanlar hələ də layiqli cəzalarını almayıblar...

***-Lakin dünya birliyi Xocalıda törədilmiş hadisələrin soyqırımı kimi tanınmasına doğru ləng də olsa, qarşısıalınmaz şəkildə irəliləyir...***

-Hesab edirəm ki, dediyiniz hərəkətə təkan verən əsas amil Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin qətiyyətli mövqeyi olub. Məhz onun təşəbbüsü ilə Azərbaycan Milli Məclisində Xocalı faciəsinin təhqiqatı ilə əlaqədar müzakirələr aparılıb, respublika parlamenti Xocalıda Soyqırımı Gününü təsis edib. Mən Xocalı hadisələrinə laqeyd qalmayan, dünya birliyinə müraciətlə bu hadisələrin Azərbaycan xalqına qarşı soyqırımı kimi tanınmasına çağıran insanların fasiləsiz səylərinə görə onlara ehtiramımı bildirirəm. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Xocalıya ədalət!" beynəlxalq informasiya kampaniyasını xüsusi qeyd etməliyəm. Həqiqətən, dünyada Azərbaycanı dəstəkləyənlərin sayı get-gedə artmaqdadır. Bu günə qədər 10-dan çox dövlət və ABŞ-ın 22 ştatı Xocalıda törədilmiş faciəni millətlərarası nifrət zəminində baş vermiş qırğın kimi tanıyıb, Avropa İnsan Haqları Məhkəməsi isə Xocalıda mülki əhalinin kütləvi şəkildə məhv edilməsini 2010-cu ildə "hərbi cinayətlərə və ya bəşəriyyət əleyhinə cinayətlərə bərabər tutulan xüsusilə ağır əməl" kimi tövsif edib. Lakin bu istiqamətdə hələ görüləsi işlər çoxdur.

***-Siz Xocalıda soyqırımı qurbanlarının xatirəsinə həsr edilmiş memorial aksiyaları necə qiymətləndirirsiniz?***

-Həmin tarix ərəfəsindəki günlərdə bakılıların çoxu Azərbaycan paytaxtının Xətai rayonunda ucaldılmış "Ana harayı" adlı memorial kompleksi ziyarət edirlər. Xocalı faciəsi barədə sənədli filmlər çəkilir, şahidlərin xatirələrinin daxil edildiyi kitablar nəşr olunur, orta və ali məktəblərdə ədəbi-bədii tədbirlər keçirilir. Azərbaycanlıların faciəsinə Türkiyədə də həssaslıqla yanaşırlar: bu yaxınlarda Kahramanmaraş şəhərində Xocalı parkının və "Ana fəryadı" abidəsinin açılışı mərasimi keçirilib. 2018-ci ilin oktyabr ayında mən Kayseri şəhərində Xocalı faciəsi qurbanlarına abidənin və Xocalı parkının açılışı mərasimində iştirak etmişəm. Həlak olmuş Xocalı şəhidlərinin xatirəsinə ehtiram əlaməti olaraq, həmin parkda 613 ağac əkilib.

Lakin ən parlaq memorial Xocalı qurbanlarının xatirəsi və bu faciə barədə həqiqət olacaq. Azərbaycan Xocalı faciəsinə oxşar hadisələrin dünyanın hər hansı yerində təkrarlanmasını istəmir. Dünya birliyi bu qanlı hadisələrə ədalətli qiymət verməklə belə təhdidlərin bəşər övladı üçün nə dərəcədə təhlükəli olmasını dərk edəcək, bu isə belə soyqırımı aktlarının bir daha təkrarlanmaması üçün bir növ profilaktik tədbir olacaq.

# Naxçıvanda Xocalı soyqırımının 27-ci ildönümü ehtiramla yad edilib







Fevralın 26-da Naxçıvan şəhərinin Dövlət Bayrağı Meydanındakı Xatirə kompleksində Xocalı soyqırımının 27-ci ildönümü ilə əlaqədar tədbir keçirilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov soyqırımı abidəsinin önünə gül qoyub, Xocalı soyqırımı qurbanlarının xatirəsini ehtiramla yad edib.

Nazirlik, komitə, idarə, müəssisə və təşkilatların rəhbərləri, hərbi hissələrin komandirləri, ictimaiyyətin nümayəndələri də erməni vəhşiliklərinin qurbanı olmuş soydaşlarımızın xatirəsini yad edib, soyqırımı abidəsinin önünə gül qoyublar.

Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Tədbirin aparıcıları qeyd ediblər ki, erməni millətçilərinin Azərbaycanın Xocalı şəhərində törətdikləri soyqırımın iyirmi yeddinci ildönümü tamam olur. "Xocalı soyqırımının iyirmi yeddinci ildönümü haqqında" Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2019-cu il 5 fevral tarixli Sərəncamında qeyd olunur ki, "Xocalı soyqırımını törətməklə Ermənistan Azərbaycana qarşı hərbi təcavüzün miqyasını daha da genişləndirmiş, Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin hüdudlarından kənara çıxaraq Laçın, Kəlbəcər, Ağdam, Cəbrayıl, Füzuli, Qubadlı, Zəngilan rayonlarını işğal etmişdir. Bunun nəticəsində 20 min soydaşımızın həyatına son qoyulmuş, 50 mindən çox insan yaralanmış və əlil olmuş, torpaqlarımızın 20 faizi işğala məruz qalmışdır. Dünya tarixinin ən qanlı faciələrindən biri sayılan Xocalı soyqırımı XX əsrdə erməni şovinizminin mahiyyətini aşkara çıxaran təkzibolunmaz tarixi gerçəklikdir".

Xocalı soyqırımı 200 il ərzində erməni millətçilərinin və onların havadarlarının Azərbaycan xalqına qarşı apardıqları soyqırımı siyasətinin davamı, erməni qəddarlığının daha bir təzahürüdür. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələrinin bölmələri, Dağlıq Qarabağda yerləşdirilmiş erməni terrorçu dəstələri, keçmiş Sovet ordusunun Xankəndi şəhərində yerləşən 366-cı motoatıcı alayının zirehli texnikası və hərbçiləri 7 min nəfərin yaşadığı Xocalı şəhərinə basqın edib, dinc sakinləri xüsusi amansızlıqla qətlə yetiriblər. Həmin gün qadağan olunmuş mərmilərdən və kimyəvi silahlardan istifadə edilib, ağbirçək analara, ağsaqqallara, südəmər körpələrə aman verilməyib. Dinc əhaliyə qarşı həyata keçirilən bu soyqırımı təkcə Azərbaycan xalqına deyil, bütün insanlığa qarşı yönəlmiş ən ağır cinayətdir. Bir gündə 106-sı qadın, 63-ü uşaq, 70-i ahıl insanlar olmaqla, 613 Xocalı sakini işgəncə ilə öldürülüb. Xocalı soyqırımında 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərindən birini itirib, 487 nəfər əlil olub. 8 ailə tamamilə məhv edilib, 1275 nəfər əsir götürülüb. Soyqırımı törətməkdə erməni şovinistlərinin məqsədi xalqımızın mübarizə əzmini qırmaq idi. Lakin düşmən öz məkrli niyyətinə çata bilmədi. Xocalının qəhrəman müdafiəçiləri düşmən qarşısında əyilmədi, onlar qeyri-bərabər döyüşdə igidliklə vuruşaraq əsl qəhrəmanlıq və vətənpərvərlik nümunəsi göstərdilər.

Xocalı soyqırımına ilk hüquqi-siyasi qiyməti ümummilli liderimiz Heydər Əliyev verib, hələ Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işlədiyi dövrdə xüsusi bəyanat verərək Xocalı soyqırımını törədənləri ittiham edib. Ümummilli Liderimizin 1993-cü ildə Azərbaycanda yenidən siyasi hakimiyyətə qayıdışından sonra Xocalı soyqırımına dövlət səviyyəsində hüquqi-siyasi qiymət verilib. 1994-cü il fevralın 24-də Azərbaycan Respublikası Milli Məclisinin qərarı ilə hər il fevralın 26-sı "Xocalı Soyqırımı Günü" elan olunub. Ümummilli lider Heydər Əliyev Xocalı soyqırımı barədə deyib: "Bu faciə xalqımızın, vətəndaşlarımızın öz Vətəninə, torpağına, millətinə sadiqliyinin nümunəsidir. Xocalıda şəhid olanlar, həlak olanlar Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda mübarizədə, Azərbaycanın müstəqilliyi uğrunda mübarizədə şəhid olublar, özlərini qurban veriblər. Onların şəhidliyi gələcək nəsillərimiz üçün qəhrəmanlıq nümunəsi olacaq və onların xatirəsi qəlbimizdə əbədi yaşayacaqdır".

Hazırda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə haqq səsimizin dünya ictimaiyyətinə çatdırılması, Xocalı soyqırımının tanınması istiqamətində ardıcıl iş aparılır. Son illər Xocalı həqiqətlərinin dünyada tanıdılması, erməni millətçiliyinin beynəlxalq miqyasda ifşası sahəsində məqsədyönlü və sistemli tədbirlər görülür. Heydər Əliyev Fondunun təşəbbüsü ilə "Xocalıya ədalət!" kampaniyası çərçivəsində soydaşlarımızı təmsil edən çoxsaylı vətəndaş cəmiyyəti institutları, gənclər təşkilatları və diaspor qurumları bu sahədə birgə səmərəli fəaliyyət göstərirlər. Soyqırımının tanıdılması sahəsində aparılan fəaliyyət nəticəsində dünya ölkələri erməni qəsbkarlarının törətdiyi insanlığa sığmayan Xocalı soyqırımı haqqında daha dolğun məlumatlandırılır. Xocalı qurbanlarının əziz xatirəsi anılır, ermənilərin vəhşiliklərini əks etdirən fotoşəkillər, filmlər, sənədli materiallar nümayiş etdirilir. Xocalı həqiqətlərinin tanıdılması istiqamətində aparılan işin nəticəsidir ki, bu gün Xocalı harayı dünyanın hər yerindən eşidilir. Bu soyqırımı beynəlxalq ictimaiyyət hiddətlə qarşılayır, dünyanın hər yerində Xocalı soyqırımına etiraz edənlərin sayı ildən-ilə artır. Artıq yalan və saxtakarlıq üzərində qurulmuş erməni təbliğat maşınının iç üzü ifşa olunur və dünya ictimai fikri Xocalı həqiqətlərini qəbul etməyə başlayır. Bir sıra dövlətlər, beynəlxalq təşkilatlar, eyni zamanda, nüfuzlu qurumlar bəşəriyyətə qarşı yönəldilmiş bu cinayətin əsl mahiyyətini başa düşərək qətliamı kəskin şəkildə pisləyirlər. 2010-cu ildə 57 ölkənin üzv olduğu İslam Əməkdaşlıq Təşkilatı parlamentinin qəbul etdikləri qətnamədə Xocalı faciəsi "Erməni silahlı qüvvələri tərəfindən dinc əhaliyə qarşı kütləvi soyqırımı" və "İnsanlığa qarşı cinayət" kimi qiymətləndirilib. Dünyanın 13 ölkəsi, eləcə də Amerika Birləşmiş Ştatlarının 22 ştatı Xocalı soyqırımını rəsmən tanıyıb. Xocalı soyqırımının tanınması haqqın, ədalətin təntənəsidir.

Xocalı soyqırımının təşkilatçıları və icraçıları layiqli cəzalarını almalı, insanlıq əleyhinə törədilmiş bu cinayət cəzasız qalmamalıdır. Heç kim unutmamalıdır ki, fevralın 26-sı təkcə Azərbaycan xalqının faciə tarixi deyil, eyni zamanda, ölkəmizin ərazi bütövlüyünün bərpası və erməni işğalına son qoyulması uğrunda mübarizə tariximizin də şanlı səhifəsidir. Bu gün hər birimiz Azərbaycan Ordusunun gücü, qüdrəti ilə fəxr edir, qürur hissi keçiririk.

2016-cı ilin aprel döyüşlərində, 2018-ci ilin Günnüt əməliyyatında xalq-ordu birliyinin sarsılmaz vəhdəti düşməndə qorxu yaradıb. Xalqımız qəti əmindir ki, beynəlxalq aləmdə mövqeyini daha da möhkəmləndirən, hərbi qüdrəti artan Azərbaycan düşmən tapdağı altında olan torpaqlarını azad edəcəkdir. Düşmən bilməlidir ki, Ali Baş Komandanımızın hücum əmrini gözləyən qüdrətli ordumuz şəhidlərimizin qisasını alacaq, üçrəngli bayrağımız Şuşada, Xankəndidə dalğalanacaqdır.

Fevralın 26-da muxtar respublikanın rayonlarında da Xocalı soyqırımının 27-ci ildönümü ilə bağlı tədbirlər keçirilib.

## *Bahar Muradova:* Beynəlxalq cinayətlərlə bağlı qanun layihəsi rəy alınması üçün beynəlxalq dairələrə göndərilib



**Azərbaycan Milli Məclisi, "Qüdrətli Azərbaycan Naminə" İctimai Birliyi və Prezident yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının birgə həyata keçirdikləri "Soyqırımı və etnik təmizləmə cinayətlərinin dünya səviyyəsində tanınmasının hüquqi aspektlərinin öyrənilməsi" layihəsi çərçivəsində hazırlanan "Beynəlxalq cinayətlərin qarşısının alınması və onları törədən şəxslərin cəzalandırılması haqqında" qanun layihəsi rəy alınması məqsədilə həm beynəlxalq dairələrə, həm də ölkənin müvafiq qurumlarına göndərilib.**

"İki sahil" xəbər verir ki, bunu Trend-ə Milli Məclis sədrinin müavini, ATƏT Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin rəhbəri Bahar Muradova deyib.

Qanun layihəsini mükəmməl sayan vitse-spiker hazırda onun müzakirə mərhələsində olduğunu, layihə üzərində məsləhətləşmələrin davam etdiyini söyləyib: "Təbii ki, Prezident Administrasiyası, Xarici İşlər Nazirliyi, hüquq mühafizə orqanlarının bu qanunun tətbiqi zamanı meydana çıxa bilən problemlərlə bağlı rəyləri bizim üçün çox əsasdır. Ona görə də layihə rəylərin alınması üçün həmin qurumlara göndərilib. Rəylər alındıqdan sonra yəqin ki, layihəni parlamentdə müzakirəyə qəbul edə biləcəyik. Bunun nə vaxt olacağı artıq rəy verən təşkilatların öz işlərini nə zaman başa çatdıracağından asılıdır. Biz də maraqlıyıq ki, həmin layihəni daha tez qəbul edək".

B.Muradova qeyd edib ki, "Beynəlxalq cinayətlərin qarşısının alınması və onları törədən şəxslərin cəzalandırılması haqqında" qanun layihəsi ilə bağlı çoxsaylı ictimai müzakirələr keçirilib: "Bu qanun beynəlxalq standartlara və sənədlərə, Azərbaycan qanunvericiliyinə uyğun şəkildə hazırlanıb".

Milli Məclisin sədr müavininin sözlərinə görə, layihə cinayətləri törədən dairələrin cəzasız qalmaması üçün hüquqi bazanın yaradılması istiqamətindəki tələbləri özündə ehtiva edir: "Qanun layihəsi qəbul olunduğu zaman Azərbaycan xalqına qarşı cinayət törədənlər mütləq şəkildə bu qanunun təsir dairəsinə düşəcəklər."

O əlavə edib ki, Xocalı soyqırımı Azərbaycana və Azərbaycan xalqına qarşı törədilmiş soyqırımı cinayətlərinin ən dəhşətli səhifəsidir. Lakin qanun layihəsi yalnız Xocalı soyqırımı ilə bağlı deyil: "Təbii ki, bu qanun qəbul olunub tətbiq olunduğu zaman həm Xocalı faciəsini törədənlər, həm buna qədər, həm də ondan sonra Azərbaycan xalqına qarşı vəhşiliklər, insanlıq əleyhinə cinayətləri törədənlər mütləq şəkildə bu layihənin təsir dairəsinə düşəcəklər. Bu qanunun ictimai müzakirələrində bildirilirdi ki, Qarabağ hadisələri üzərindən Ermənistanda hakimiyyətə gələrək özünün təhlükəsizliyini təmin edənlər bir gün bunu itirəcəklər. Bu gün o şəxslərin bir çoxu öz ölkəsində cinayət məsuliyyətinə cəlb olunaraq məhkəmə ittihamları ilə üzəüzədirlər. İndiki halda onlar öz vətəndaşlarına qarşı törətdikləri cinayətlərə görə ittiham olunurlar. Amma həmin insanlara qarşı ittihamların üzərinə insanlıq əleyhinə cinayət törədicisi kimi ittiham da əlavə olunacaq və onlar törətdikləri cinayət əməlinə görə məsuliyyət daşıyacaqlar".

B.Muradova vurğulayıb ki, bu cinayət təkcə müəyyən qrup şəxslərin və daha sonra Ermənistan hakimiyyətini idarə edən rəsmi şəxslərin cinayəti kimi ortaya çıxmır, eyni zamanda, söhbət onların təhrikçiliyi və təşkilatçılığı ilə bütöv bir xalqın - Ermənistan xalqının bu cinayətə şərik olmasına səbəb olmaqdan gedir: "Ona görə də düşünürəm ki, Ermənistan xalqı, bugünkü Ermənistan iqtidarı bu cinayətlərə şərik olmadığını sübut etmək və insanlıq əleyhinə cinayət törədə biləcək bir iqtidarda olmadıqlarını göstərmək istəyirlərsə, bu ittihamı da əvvəlki hakimiyyətdə təmsil olunan cinayətkarlara qarşı irəli sürməlidirlər və öz xalqlarını belə bir ittiham qarşısında qoymamalıdırlar. Hesab edirəm ki, indi onların bu barədə düşünmək, qərar vermək və addım atmaq üçün vaxtları var".

# İstanbulda Xocalı soyqırımına həsr olunan izdihamlı yürüş



**XX əsrin ən qanlı faciələrindən biri olan Xocalı soyqırımının 27-ci ildönümü ilə bağlı fevralın 26-da Türkiyənin İstanbul şəhərində izdihamlı yürüş keçirilib. Yürüş Azərbaycanın İstanbuldakı baş konsulluğu və İstanbulun Bağçılar Bələdiyyəsinin təşkilatçılığı ilə baş tutub.**

"İki sahil" AZƏRTAC-a istinadən xəbər verir ki, yürüşdə Azərbaycandan gəlmiş nümayəndə heyəti, Türkiyə Böyük Millət Məclisinin deputatları, ictimaiyyətin və KİV-lərin nümayəndələri, ölkəmizin İstanbuldakı baş konsulluğunun, Bağçılar Bələdiyyəsinin əməkdaşları iştirak ediblər.

Əllərində Azərbaycanın və Türkiyənin dövlət bayraqları, "Xocalı qətliamı. Unutmadıq, unutdurmayacağıq" sözləri, soyqırımı zamanı həlak olmuş insanların adları yazılmış plakatlar tutan yürüş iştirakçıları Bağçılar meydanından Azərbaycan Dostluq Parkına doğru hərəkət ediblər.



Yürüşün məqsədi Xocalı soyqırımı qurbanlarının xatirəsini ehtiramla yad etmək, ermənilər tərəfindən insanlığa qarşı törədilmiş bu vəhşi cinayəti yenidən dünya ictimaiyyətinin diqqətinə çatdırmaq idi.

Əvvəlcə Azərbaycanın və Türkiyənin dövlət himnləri səsləndirilib, Xocalı soyqırımı qurbanlarının xatirəsi ehtiramla yad edilib.

Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrım 27 il əvvəl Azərbaycanın Xocalı şəhərində insanlıq dramının yaşandığını bildirib. Qeyd edilib ki, bu faciə yalnız azərbaycanlılara deyil, bütün türk millətinə, insanlığa qarşı törədilən cinayətdir. Şamil Ayrım Xocalı qətliamı zamanı 613 günahsız insanın, o cümlədən 106 qadının, 63 uşağın və 70 qocanın xüsusi qəddarlıqla öldürüldüyünü, 1275 insanın əsir və girov götürülərək işgəncələrə məruz qaldığını xatırladıb. Bildirib ki, ermənilər əsirlər boyu Qarabağ torpağında bir çox qanlı cinayətlər törədiblər və tarixdə bunun sübutları var. Qarabağın, sadəcə, Azərbaycanın deyil, bütün türk dünyasının qanayan yarası olduğunu bildirən dostluq qrupunun rəhbəri bu qətliamı törədənlərin cəzalandırılmasının, haqq-ədalət qarşısında cavab verməsinin vacibliyini vurğulayıb.









Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov çıxış edərək Azərbaycanın artıq 30 ildir Cənubi Qafqazda sülh axtarışında olduğunu bildirib. Qeyd edib ki, 27 ildir biz Xocalıya ədalət axtarırıq. Bu müddət ərzində biz bu soyqırımının nəticələri, onun qurbanları barədə həqiqətləri dünyaya çatdırırıq. Əlbəttə, bu istiqamətdə əldə etdiyimiz nəticələr var. Türkiyə Respublikası və türk xalqının dəstəyi ilə biz dünyanın böyük bir qisminə bu qətliamın həqiqətlərini çatdıra bilmişik. Türkiyə də daxil olmaqla dünyanın demək olar ki, bütün dövlətləri Xocalıda nələrin baş verdiyini bilirlər. Bu günədək dünyanın 10-dan çox ölkəsi, ABŞ-ın 22 ştatı Xocalıda baş verənləri soyqırımı kimi tanıyıb. Biz Xocalı soyqırımının səbəb və nəticələrini daha geniş coğrafiyada tanıtmaq istiqamətində işlərimizi davam etdiririk. Xocalıya ədalət axtarışı Azərbaycanın dövlət siyasətidir və biz bu siyasəti artıq təkcə Azərbaycan deyil, Türkiyənin köməyi, türk xalqının iştirakı ilə həyata keçiririk. Azərbaycan və Türkiyə prezidentləri İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan 2007-ci ildə Bakıda Azərbaycan və türk diaspor təşkilatları rəhbərlərinin Forumunda iştirak ediblər. Həmin toplantıdan sonra biz bir millət, iki dövlət olaraq diaspor qurumlarımızı birləşdirmişik və vahid diaspor siyasəti yürüdürük. Bu gün dünya ölkələrində azərbaycanlılar qədər türklər də Xocalıya ədalət uğrunda çalışırlar. Bu günlərdə Türkiyənin hər bir bölgəsində Xocalı qətliamı qurbanlarının xatirəsi yad edilir.

Digər çıxış edənlər Xocalıda törədilmiş soyqırımı haqqında tədbir iştirakçılarına məlumat veriblər. Qeyd edilib ki, orada insanlar azərbaycanlı və müsəlman olduqlarına görə qətlə yetiriliblər. Buna görə də Xocalı soyqırımı yalnız Azərbaycana qarşı deyil, bütün türk və müsəlman dünyasına, eyni zamanda, insanlığa qarşı törədilmiş bəşəri cinayətdir.

Sonra tədbir iştirakçıları parkda inşa edilmiş "Xocalını unutma" abidəsinin önünə güllər düzüblər.

Xocalı soyqırımında qətlə yetirilmiş insanların sayına uyğun olaraq parkda 613 ağac əkilib.

---

## SUMQAYIT HADİSƏLƏRİ:

# ermәni vandalizminin növbəti təzahürü

**SSRİ dövründə Sumqayıt şəhəri Azərbaycanın böyük, inkişaf etmiş, çoxmillətli xüsusiyyətlərə malik sənaye şəhəri kimi ad-san qazanmışdır.1988-ci ilin fevralına qədər Sumqayıtda etnik zəmində hər hansı qarşıdurma olmamışdı. Lakin həmin ilin fevralında etnik zəmində törədilən iğtişaş nəyin bahasına olursa-olsun Azərbaycanın əzəli torpağı olan Dağlıq Qarabağı Ermənistana birləşdirməyə çalışan erməni millətçilərinin məqsədyönlü təxribatlarının kulminasiya nöqtəsi idi.**

Bütün bunlar tarixə "Sumqayıt hadisələri" kimi yazıldı. Məhz bu hadisələrin araşdırılması, əsl həqiqətlərin üzə çıxması həmin dövrün ən aktual və vacib məsələsi olmuşdu.

Bu hadisələrin baş vermə səbəbinin araşdırılmasını öhdəsinə götürən SSRİ Baş Prokurorluğu işi axıra çatdıra bilmədi. Belə ki, iğtişaş iştirakçılarının yalnız bir qismi müəyyən edilib məhkəmənin qərarı ilə cəzalandırıldı, SSRİ-nin siyasi rəhbərliyi və SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin təzyiqləri nəticəsində istintaq məntiqi sonluğa çatdırılmadı, onun təşkilatçıları və sifarişçiləri qeyri-müəyyən qaldı.

İstintaq materialların təhlili təsdiq edir ki, Sumqayıtdakı iğtişaş Azərbaycana qarşı Ermənistan xüsusi xidmət orqanları və SSRİ Dövlət Təhlükəsizlik Komitəsi tərəfindən təşkil edilmiş təxribat idi. SSRİ Konstitusiyası əsasında Dağlıq Qarabağın Azərbaycandan ayrılmasının qeyri-qanuniliyini dərk edən erməni ideoloqları və SSRİ rəhbərliyində onları açıq dəstəkləyən şəxslər ermənilərin və azərbaycanlıların birgə yaşamasının qeyri-mümkünlüyünü əsaslandırmaq, azərbaycanlıların artıq tam şəkildə Ermənistan ərazisindən qovulmasını təmin etmək və Azərbaycanı nüfuzdan salmaq üçün bu təxribata əl atmışdılar.

Sumqayıtda baş vermiş iğtişaşlar zamanı saxlanılmış erməni soyadı daşıyanların barəsində heç bir araşdırma aparılmamış, onlar dərhal "zərərçəkən" tərəf kimi buraxılmış və bir çoxları məsuliyyətdən kənarda qalmışdır. İş üzrə təqsirləndirilən şəxs kimi cəlb edilmiş Qriqoryan Eduard Robertoviç isə məhkəmənin hökmü ilə azadlıqdan məhrum edilib, SSRİ dağılandan sonra Ermənistanın həbsxanasına köçürülüb və oradan da dərhal müəmmalı şəkildə azadlığa buraxılıb. Dəstənin azərbaycanlı üzvlərindən biri olan Əhməd Əhmədova ölüm hökmü kəsildi.

Məhz bu təxribatdan sonra ermənilər azərbaycanlılarla bir yerdə yaşamağın qeyri-mümkün olduğunu bəyan etməyə və Dağlıq Qarabağdakı separatçılığa haqq qazandırmağa başladılar. Lakin qeyd edilməlidir ki, Sumqayıtda həmin dövrdə 18 min nəfərdən artıq erməni yaşadığı halda, cəmi 26 nəfər ermənininin öldürülməsi, azərbaycanlıların öz erməni qonşularını fədakarcasına müdafiə etmələri, qorumaları və gizlətmələri nəticəsində mümkün olmuşdur.



1988-ci ilin fevral hadisələrindən keçən illər ərzində erməni tərəfi öz separatçı və işğalçı siyasətinə, Xocalı soyqırımına və Azərbaycan torpaqlarında törətdiyi digər cinayətlərə bəraət qazandırmaq naminə Sumqayıtda baş verən iğtişaşları əllərində bayraq ediblər.

Hələ 1988-ci ildən başlanmış bu təbliğat kampaniyası dünya ictimaiyyətinə azərbaycanlıların ermənilərə qarşı qəddarlığı, ermənilərin azərbaycanlılarla bir dövlət tərkibində birgə yaşamalarının mümkün olmaması ideyasını yaymağa yönəlmişdir.

Bu hadisələr bir daha məşhur deyimi xatırladır: "Ermənilər üçün ən yaxşı erməni ölü ermənidir". Ermənilər ölmüş və yaxud öldürülmüş həmtayfalarından həmişə məharətlə istifadə ediblər. Ermənilər Sumqayıt hadisələrindən öz məkrli niyyətləri üçün yararlanmaq məqsədi güdürdülər. Ona görə də bu hadisələr haqda dərhal dünya ictimaiyyətində yanlış rəy formalaşdırmağa, anti-Azərbaycan əhval-ruhiyyəsi yaratmağa başladılar. Digər tərəfdən, beynəlxalq erməni lobbisi Azərbaycan və Ermənistan arasında qarşıdurmaya dönməz xarakter verməyə, münasibətləri daha da kəskinləşdirməyə, dinc nizamlama perspektivlərini heçə endirməyə çalışırdılar.

Sumqayıt hadisələrində 26 nəfər ermənin öldürülməsi də elə onların öz hiylələri, mundar məqsədləri naminə öz həmvətənlərinə etdikləri haqsızlıq nümunəsi idi. Doğrudur, yalnız məqsədinə çatmaq üçün yerdə qalan hər şeyi, hər kəsi unudan bir millətdən haqq-ədalət gözləmək də doğru deyil. Dünyaya vətəndaşların ölümü ilə nəticələnən bu iğtişaşı vandalizmin təcəssümü kimi təqdim etməyə çalışan ermənilərin əslində məqsədlərinə doğru çatmaq yolunda özlərinin əlləri ilə qətlə yetirdikləri növbəti qurbanların əyani sübutu idi.

**Yaqut Ağaşahqızı, *"İki sahil"***

# Vətəndaş amilinə verilən dəyərin göstəricisi



**Ölkəmizdə sosial sahə dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Əhalinin sosial müdafiəsinin yaxşılaşdırılması, işsizliyin aradan qaldırılması, aztəminatlı ailələrə, şəhid ailələrinə, veteranlara dövlət qayğısının, pensiya və təqaüdlərin, maaşların, o cümlədən minimum əməkhaqlarının artırılması istiqamətində atılan addımlar Azərbaycanın şaxələndirilmiş iqtisadiyyatının nəticələridir.**

Xəbər verildiyi kimi, fevralın 25-də ölkə Prezidenti cənab İlham Əliyev "Əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində əlavə tədbirlər haqqında" Sərəncam imzalayıb. Bu Sərəncamın imzalanması dövlət başçısının daha bir humanist təşəbbüsünün nəticəsi olmaqla, əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində mühüm tədbirlərin ardıcıl xarakter aldığını göstərir. Sərəncam əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində daha bir inqilabi addımdır. Sənəddə də vurğulandığı kimi, Sərəncamın imzalanmasında məqsəd əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində tədbirləri davam etdirmək və bu tədbirlərin əhatə dairəsini daha da genişləndirməkdir. Qeyd edək ki, Sərəncam ümumilikdə 576,8 min nəfərə yönələn sosial müavinətlərin və Prezidentin aylıq təqaüdlərinin əhəmiyyətli dərəcədə artırılması, eləcə də həmin təqaüdlərin əhatə dairəsinin daha da genişləndirilməsi məqsədinə xidmət edir. Sərəncama əsasən edilən artımlar üçün cari ilin 9 ayı üçün əlavə olaraq 300 milyon manat, illik isə əlavə olaraq 400 milyon manat vəsait ayrılacaq.

Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev mətbuata açıqlamasında bildirib ki, Sərəncam ümumilikdə 576,8 min nəfərə yönələn sosial müavinətlərin və Prezidentin aylıq təqaüdlərinin əhəmiyyətli dərəcədə artırılması, eləcə də həmin təqaüdlərin əhatə dairəsinin daha da genişləndirilməsi məqsədinə xidmət edir: "Sərəncama uyğun olaraq, sosial müavinətin məbləğinin yaşa görə müavinət alanlar üçün 73 manatdan 130 manata, I qrup əlilliyə görə (ümumi səbəbdən əlillər üçün 82 manatdan, müharibə əlilləri üçün 101 manatdan, "Çernobıl AES-də hərbi xidmətlər əlaqədar" və "hərbi xidmət vəzifəsini yerinə yetirməklə əlaqədar" əlilliyi olanlar üçün 94 manatdan) 150 manata, II qrup əlilliyə görə (ümumi səbəbdən əlillər üçün 61 manatdan, müharibə əlilləri, "Çernobıl AES-də hərbi xidmətlər əlaqədar" və "hərbi xidmət vəzifəsini yerinə yetirməklə əlaqədar" əlilliyi olanlar üçün 81 manatdan) 130 manata, III qrup əlilliyə görə (ümumi səbəblərdən əlillər üçün 52 manatdan, müharibə əlilləri üçün 73 manatdan və "Çernobıl AES-də hərbi xidmətlər əlaqədar" və "hərbi xidmət vəzifəsini yerinə yetirməklə əlaqədar" əlilliyi olanlar üçün 61 manatdan) 110 manata, sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlar üçün 82 manatdan 150 manata, ailə başçısını itirməyə görə isə ailə üzvlərinin hər biri üçün 68 manatdan 80 manata çatdırılması nəzərdə tutulur."

Təkcə 2019-cu ilin əvvəlindən bəri Azərbaycanın dövlət başçısı əhalinin sosial müdafiəsinin gücləndirilməsinə, ölkə vətəndaşlarının gəlir imkanlarının artırılmasına hesablanan bir sıra Fərman və sərəncamlar imzalayıb. Dövlətimizin başçısının "Əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində əlavə tədbirlər haqqında" Sərəncamdan əlavə, ilin əvvəlindən bu günə kimi imzaladığı "Minimum əmək haqqının artırılması haqqında" Fərmanı, həmçinin ölkəmizdə 2019-cu il üçün ehtiyac meyarının həddi haqqında qanunun təsdiqlənməsi və s. kimi addımlar vətəndaş amilinə verilən dəyərin göstəricisidir. Həmçinin cari ildə yaşayış minimumu ölkə üzrə 180 manat, əmək qabiliyyətli əhali üçün 191 manat, pensiyaçılar üçün 149 manat, uşaqlar üçün 160 manat müəyyən edilib. Minimum əməkhaqqının, pensiyaların, tələbələrin təqaüdlərinin artırılması və digər ödənişlər böyük sosial paketin tərkib hissəsidir. Cari ilin ötən ayının və ümumilikdə 2019-cu ildə nəzərdə tutulan addımlara nəzər yetirək. Hazırda 12 min 200-dən artıq şəhid ailəsinə dövlət tərəfindən 11 min manat ödəniş edilir. Şəhid ailələrinin müavinətləri 242 manatdan 300 manata artırıldı. Bu il 6-7 min köçkün ailəsi yeni mənzillərlə, evlərlə təmin ediləcək, şəhid ailələrinə 800 mənzil veriləcək. Bu il minimum əməkhaqqı 38 faiz artaraq 130 manatdan 180 manata qaldırıldı. Minimum pensiyaların məbləği 38 faiz artırılaraq 116 manatdan 160 manata çatdırıldı.

Milli Məclisin deputatı Tahir Mirkişili cənab İlham Əliyevin "Əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində əlavə tədbirlər haqqında" Sərəncamını şərh edərkən bildirdi ki, çox böyük sayda və çeşiddə müavinətlər artırılıb və bu, artıq davamlı gedən prosesin növbəti mərhələsidir: "Sosial paketin ayrı-ayrı hissələri ilə bağlı artıq qərarlar qəbul olunur. Minimum əmək haqları artırıldı, pensiyalar, təqaüdlər artırıldı, şəhid ailələri üçün sosial təminatın yaxşılaşdırılması istiqamətində müxtəlif qərarlar verildi. Eyni zamanda müxtəlif mərhələdə sosial müavinətlərin artırılması üçün qərar verildi. Bütövlükdə bu qərar kifayət qədər insanı əhatə edir. 2 milyondan çox Azərbaycan vətəndaşını əhatə edən belə sosial qərarlar bir tərəfdən əhalinin sosial həyat tərzinin yaxşılaşmasına, digər tərəfdən isə iqtisadi aktivliyə səbəb olacaq. Verilən bu qərarlar 1 milyard manatdan əlavə vəsaitin dövlət büdcəsindən ödənməsinə gətirib çıxaracaq, son nəticədə isə əhalinin həyat tərzinin yaxşılaşdırılmasına səbəb olacaq. Bu mənada son addımlar bütövlükdə ölkənin rifahı baxımından yüksək qiymətləndirilməlidir."

**Orxan Vahidoğlu,**
***"İki sahil"***

*Vüqar Rəhimzadə:*

# Azərbaycan Prezidentinin son fərman və sərəncamları sosial müdafiə sahəsində atılan inqilabi addımlardır



Prezident İlham Əliyevin 2019-cu ilin əvvəlindən bəri imzaladığı fərman və sərəncamlarına diqqət yetirsək görərik ki, insan amilinə verilən dəyər, ən əsası onların sosial müdafiəsinin gücləndirilməsinin prioritetliyi daha aydın şəkildə özünü göstərir. Təkmil sosial-iqtisadi islahatları ilə özünü dünyaya sosial dövlət kimi təqdim edən ölkəmizdə həyata keçirilən siyasətin təməlində vətəndaş amilinin dayanması beynəlxalq maliyyə qurumlarının hesabatlarında da yüksək qiymətləndirilir, təqdir olunur. Prezident İlham Əliyev fəaliyyətə başladığı gündən bu məqsədi açıqlayıb ki, iqtisadi göstəricilər yalnız rəqəmlərdə deyil, insanların gündəlik həyatında öz əksini tapmalıdır.

**Bu fikirləri YAP Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə AZƏRTAC-a açıqlamasında bildirib.**

Vüqar Rəhimzadə qeyd edib ki, Prezident İlham Əliyevin yanında keçirilən iqtisadi və sosial məsələlərə bağlı müşavirə bütün dövrlər üçün aktuallığını saxlayan "İqtisadi tərəqqi güclü sosial siyasətlə tamamlanmalıdır" tezisinin bugünkü reallıqlarımızla üst-üstə düşdüyünü bir daha təsdiqlədi. Dövlətimizin başçısı həmin müşavirədə bir daha vurğuladı ki, vətəndaşların sosial rifahının yaxşılaşdırılması başlıca vəzifədir. Əlavə gəlirlər, ilk növbədə, vətəndaşların sosial müdafiəsinə yönəldilir. Atılan addımlara söykənərək Prezident İlham Əliyev bu inamı da ifadə edib ki, 2019-cu il sosial inkişaf, əhalinin sosial müdafiəsi baxımından başqa illərdən fərqlənən il olacaq.

Baş redaktor əlavə edib ki, hər bir sahənin uğurlu inkişafına geniş yol açan iqtisadi tərəqqinin davamlılığı göz önündədir. Son 15 ildə neft strategiyasının məntiqi davamı kimi dəyərləndirilən qeyri-neft sektorunun inkişafı istiqamətində atılan addımların uğurlu nəticələri işsizlik və yoxsulluq səviyyəsinin 5 faizə enməsində də özünü göstərir. Özünüməşğulluq proqramının icrası, ABAD mərkəzlərinin coğrafiyasının genişləndirilməsi ailə təsərrüfatlarının inkişafına yol açmaqla yanaşı, onların sosial müdafiəsinin gücləndirilməsinə xidmət edən addımlar sırasındadır. Ulu öndər Heydər Əliyevin uzaqgörən siyasətinin tərkib hissəsi kimi dəyərləndirilən, 1999-cu ildə yaradılan Dövlət Neft Fondunun vəsaitləri hesabına reallaşdırılan mühüm sosial-iqtisadi layihələr də ölkəmizin hərtərəfli inkişafına, əhalinin yüksək rifahına yönəlib. Dövlətimizin başçısı İlham Əliyev qeyd olunan müşavirədə də bu məsələyə xüsusi diqqət yönəldərək deyib: "Bu ilin birinci ayında Dövlət Neft Fondunun gəlirləri də əhəmiyyətli dərəcədə artıb. Yəni, bizim maliyyə vəziyyətimiz yaxşılaşır, sabit olaraq qalır və bu, əlbəttə, bizə imkan verir ki, əlavə gəlirləri, ilk növbədə, vətəndaşların sosial müdafiəsinə yönəldək".

V.Rəhimzadə qeyd edib ki, düşünülmüş və məqsədyönlü siyasətin nəticəsində bu gün Azərbaycanın inkişaf modeli dünyada təqdir olunur, öyrənilməsinin vacibliyi bildirilir. Ölkəmizin 2008-ci ildə dünyada baş verən və nəticələri bu günə qədər davam edən iqtisadi və maliyyə böhranından az itki ilə çıxmasını şərtləndirən əsas amil də məhz iqtisadiyyatını düzgün əsaslar üzərində qurmasıdır. Son illərdə neft-qaz gəlirlərinin iqtisadiyyatın şaxələndirilməsinə yönəldilməsi davamlı inkişafı təmin edən mühüm amillərdəndir. Dövlətimizin başçısı İlham Əliyev müşavirədə bu məqamı da xüsusi qeyd edərək deyib: "Yanvar ayında Davos Ümumdünya İqtisadi Forumu çərçivəsində apardığımız danışıqlar, görüşlər bir daha onu göstərir ki, ölkə iqtisadiyyatına böyük biznes tərəfindən çox böyük maraq var. Azərbaycanla əməkdaşlıq etmək istəyən, investisiya qoymaq istəyən şirkətlərin sayı artır və növbəti illər üçün xarici sərmayəni qeyri-neft sektoruna cəlbetmə məsələləri prioritet təşkil edəcəkdir. Eyni zamanda, Davosda aparıcı beynəlxalq maliyyə qurumlarının rəhbərləri ilə də görüşlərim onu göstərir ki, Azərbaycanda aparılan islahatlara çox böyük maraq var və bu islahatlara yüksək qiymət verilir".

Baş redaktor açıqlamasında ölkəmizin hərtərəfli inkişafında, əhalinin sosial müdafiəsinin gücləndirilməsində mühüm rol oynayan regional inkişaf proqramlarından da bəhs edib. Bildirib ki, üçüncü Dövlət Proqramının icrasının başa çatması, yeni dördüncü Dövlət Proqramının qəbulu qarşıdakı illər üçün müəyyənləşdirilən hədəflərə yüksək səviyyədə nail olmağa əsas verir: "Əsas hədəf, təbii ki, Azərbaycanı yüksək gəlirli dövlətə çevirmək, inkişaf etmiş ölkələr sırasında görmək, eyni zamanda, bu günə qədər 3 dəfədən çox artan ümumi daxili məhsulun daha iki dəfə artırılmasına nail olmaqdır. Qarşıdakı illərin prioritetləri sırasında işsizlik və yoxsulluq səviyyəsinin minimuma endirilməsi də əsas yer tutur, yəni, sosial rifahın yüksəldilməsi həmişə olduğu kimi, qarşıdakı illərdə də əsas olacaq".

V.Rəhimzadə 2019-cu ilin ilk ayında sosial müdafiənin gücləndirilməsinə xidmət edən addımlara, həmçinin imzalanan fərman və sərəncamlara bir daha diqqət yönəldib. Bildirib ki, minimum əməkhaqqının artırılması vətəndaşlara ünvanlanan növbəti böyük sevindirici addım olub: "Dövlətimizin başçısı İlham Əliyev müşavirədə bir daha bildirib ki, minimum əməkhaqqının, pensiyaların, tələbələrin təqaüdlərinin artırılması və digər ödənişlər böyük sosial paketin tərkib hissəsidir. Statistik rəqəmlərə diqqət yetirək. Bu il minimum əməkhaqqı 38 faiz artaraq 130 manatdan 180 manata qaldırıldı. Hazırda 12 min 200-dən artıq şəhid ailəsinə dövlət tərəfindən 11 min manat ödəniş edilir. Şəhid ailələrinin müavinətləri 242 manatdan 300 manata artırıldı. Bu il 6-7 min köçkün ailəsi yeni mənzillərlə, evlərlə təmin ediləcək, şəhid ailələrinə 800 mənzil veriləcək. Minimum pensiyaların məbləği 38 faiz artırılaraq 116 manatdan 160 manata çatdırıldı. Bu gün Azərbaycan minimum pensiyaların səviyyəsinə görə MDB məkanında liderlər sırasındadır. Minimum pensiyaların artırılması 223 min insanın pensiya təminatını yaxşılaşdıracaq".

Baş redaktor bildirib ki, Prezident İlham Əliyevin "Əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində əlavə tədbirlər haqqında" Sərəncamı da atılan davamlı addımların tərkib hissəsidir: "Sərəncam ümumilikdə 600 minə yaxın vətəndaşa yönələn sosial müavinətlərin və Prezidentin aylıq təqaüdlərinin əhəmiyyətli dərəcədə artırılması, eləcə də həmin təqaüdlərin əhatə dairəsinin daha da genişləndirilməsi məqsədinə xidmət edir. İmzaladığı hər bir fərman və sərəncamla vətəndaşlarına böyük sevinc bəxş edən möhtərəm Prezidentimiz İlham Əliyev bu fikri də daim bildirir ki, atılan addımlar davamlı olacaq. Bir sözlə, Azərbaycan Prezidentinin son fərman və sərəncamları sosial müdafiə sahəsində atılan inqilabi addımlardır".

## Litva mətbuatı Xocalı soyqırımı və "Sonsuz dəhliz" filmindən yazıb



Litvanın Mikolas Romeris Universitetində Xocalı soyqırımı haqqında çəkilmiş "Sonsuz dəhliz" filmi nümayiş etdirilib. Bu ölkənin Alkast.lt və Bernardinai.lt xəbər portallarında filmə və Xocalı soyqırımının 27-ci ildönümünə həsr olunmuş geniş məqalələr dərc edilib.

"İki sahil" AZƏRTAC-a istinadən xəbər verir ki, məqalədə 1992-ci il fevralın 26-da Azərbaycanın Xocalı şəhərində baş vermiş qanlı cinayət və onun nəticələri haqqında geniş məlumat verilir. Bildirilir ki, litvalı müəlliflərin lentə aldığı "Sonsuz dəhliz" sənədli filmi bu dəhşətli hadisələrə işıq salır. Vurğulanır ki, həmin filmə baxarkən litvalı tamaşaçı erməni qəddarlığına izah tapmaqda çətinlik çəkir.

Məqalədə bildirilir ki, "Sonsuz dəhliz" filmi 1992-ci ilin o dəhşətli günlərində təsadüfən Azərbaycanda olmuş litvalı jurnalist Riçard Lapaytisin şahidi olduğu hadisələr əsasında lentə alınıb.

*Sədaqət Vəliyeva:*

## Prezidentin son qərarları böyük sosial islahatlar paketinin tərkib hissəsidir



"Cənab Prezident İlham Əliyevin vətəndaşlarımızın sosial rifahının yüksəldilməsinə, ölkəmizin daha da inkişaf etdirilməsinə xidmət edən sərəncamları, fərmanları və qərarları realaşdırılan böyük sosial islahatlar paketinin tərkib hissəsidir". Bu fikirləri Yeni Azərbaycan Partiyası (YAP) Nizami rayon təşkilatının sədri, Milli Məclisin deputatı Sədaqət Vəliyeva deyib.

Sədaqət Vəliyeva bildirib ki, 12 min 200-dən çox şəhid ailəsinə dövlət tərəfindən 11 min manat ödənişin edilməsi, şəhid ailələrinin müavinətlərinin 242 manatdan 300 manata artırılması, Əfqanıstanda həlak olanların ailələrinə verilən müavinətin 220 manatdan 300 manata qaldırılması, minimum əməkhaqqının 38 faiz artırılması, 130 manatdan 180 manata çatdırılması, həmçinin, minimum pensiyaların məbləğinin də təxminən 38 faiz - 116 manatdan 160 manata qədər artırılması, eləcə də təqribən 100 minə yaxın tələbənin təqaüdünün qaldırılması cənab Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin mərkəzində insan amilinin olduğunu bir daha sübut etmiş olur.

Deputat əlavə edib ki, cənab Prezident İlham Əliyev sosial tədbirlərin davam etdirilməsi üçün müvafiq addımların atılması üçün tapşırıqlar da verib: "Məsələn, vətəndaşları narahat edən məsələlərdən biri də problemli kreditlərlə bağlıdır. Bu problemlə də əlaqədar cənab Prezident xüsusi həssaslıq nümayiş etdirmiş və bu məsələnin də vətəndaşların xeyrinə həll edilməsi üçün müvafiq göstərişlər vermişdir. Əminəm ki, bu problem də qısa zaman ərzində həllini tapacaq".

S.Vəliyeva bildirib ki, Prezident İlham Əliyev tərəfindən atılan addımlar, görülən işlər bir daha isbatlayır ki, Azərbaycanda həyata keçirilən sosial siyasət sistemli, düşünülmüş kompleks tədbirlərdən ibarətdir.

## BSU-da dərslər Xocalı faciəsinin anımı ilə başlayıb



Artıq bir neçə gündür Bakı Slavyan Universitetində Xocalı soyqırımının 27-ci ildönümü ilə bağlı silsilə tədbirlər keçirilir. BSU-nun foyesində Xocalı faciəsində ermənilər tərəfindən qəddarlıqla qətlə yetirilən günahsız həmvətənlərimizə aid stend hazırlanıb. Universitet YAP fəallarının təşkilatçılığı ilə BSU-nun hər iki tədris binasında müəllim-tələbə və işçi kollektivinə matəm rəmzi olaraq üstündə "Xocalı soyqırımı" yazılan qara lent paylanıb. Həmçinin BSU üzrə YAP-ın təşkilatçılığı ilə universitetdə təhsil alan yerli və əcnəbi tələbələr Azərbaycan Respublikası Hərbi Prokurorluğunun inzibati binasında yerləşən Memorial Soyqırım Muzeyində ekskursiyada olublar.

Bunlarla yanaşı, fevralın 26-da universitetdə birinci və ikinci növbənin bütün dərsləri Xocalı qurbanlarının xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlanıb və mühazirələr Xocalı faciəsinə həsr olunub.

# Dövlətin sosial təşəbbüslərindən təqribən 2 milyon 200 min nəfər faydalanacaq



**Prezident İlham Əliyevin ölkə əhalisinin sosial rifahının yüksəldilməsinə dair həyata keçirdiyi işlərin miqyası gündən- günə genişlənir. Dövlət başçısı son iki ayda imzaladığı sosialyönümlü sərəncamlarına fevralın 25-də daha birini də əlavə etdi. Həm də bu sərəncamı inqilabi addım da hesab etmək olar. Ona görə ki, sonuncu Sərəncam əvvələ əhatə dərəcəsinə görə, bütün sosial təbəqəni əhatə edir, digər tərəfdən artımlar bir çox istiqamətlərdə 100 faizə çatdırılıb.**

Bəs bu artımların maliyyə qaynağı necə yaranıb? Qeyd edək ki, fevralın 25-də Prezident İlham Əliyevin yanında keçirilən sosial-iqtisadi məsələlərə həsr olunmuş müşavirədə ölkə başçısı bildirib ki, ilin birinci ayının sosial-iqtisadi göstəriciləri yüksək olub. Yanvar ayında iqtisadi artım təxminən 3 faiz təşkil edib, qeyri-neft sektorunda sənaye istehsalı 14 faiz artıb. Məhz bu artımlar, o cümlədən dövlət büdcəsinin maliyyə vəsaitləri hesabına reallaşacaq: "Bildirməliyəm ki, təkcə ilin birinci ayında daxilolmalar kəskin artmışdır. Vergi orqanları plandan əlavə 80 milyon manatdan çox vəsait toplamışlar. Gömrük orqanları isə plandan əlavə 20 milyon manatdan çox vəsait toplamışlar və ümumi daxilolmalar 105 milyon manat artmışdır, təkcə bir ay ərzində. Bu, nəyi göstərir? Onu göstərir ki, bu sahədə aparılan islahatlar, şəffaflıqla bağlı atılan addımlar öz nəticəsini verir. Bu gün islahatların dərinləşməsi üçün çox gözəl şərait yaradılıbdır".

Təbii ki bu artımların gələcəkdə davam etməsi planlaşdırılır. Ən önəmli məqam isə sosial müavinətlərin artırılmasından sonra insanları narahat edən problemli kreditlərin həll edilməsi istiqamətində atılacaq addımlardır. Eyni zamanda, minimum əmək haqqının yenidən artımı ilə bağlı təkliflər hazırlanır. Müşavirədə Prezident xüsusi vurğulayıb ki, dövlətin sosial təşəbbüslərindən təqribən 2 milyon 200 min nəfər faydalanacaq.

Prezident 2019-cu ilin sosial rifah ili olacağını da anons edib: "Ümumiyyətlə, bildirmək istəyirəm ki, 2019-cu il sosial inkişaf, əhalinin sosial müdafiəsi baxımından başqa illərdən fərqlənən il olacaqdır".

Əhalinin ən həssas təbəqəsi olan şəhid ailələrinə Prezidentin qayğı və diqqəti davamlıdır. Məhz bunun nəticəsidir ki, onlara ayrılan sığorta haqlarının verilməsi prosesi şəffaf şəkildə həyata keçirilir. Ölkə başçısının göstərişi ilə ilin sonunadək bu ödəmələr başa çatdırılacaq. Eyni zamanda, Prezident müşavirədə vurğulayıb ki, bununla paralel olaraq, şəhid ailələri ilə görüşdə onlar məsələ qaldırdılar ki, müavinətlər də artsın: "Dərhal fərman imzalandı və bu müavinət 242 manatdan 300 manata artırıldı. Maddi imkanlarımız artdıqca, əlbəttə ki, daim bu məsələ diqqət mərkəzində olacaqdır. Bu yaxınlarda Əfqanıstan veteranlarının müavinəti də artdı - 220 manatdan 300 manata qalxmışdır. Bu da ədalətli yanaşmadır. Bir sözlə, bütün bu məsələlərlə bağlı biz ardıcıl olaraq öz siyasətimizi aparırıq. Maddi imkanlarımız artdıqca, ilk növbədə, bu məsələləri həll edirik. Bu il şəhid ailələrinə 800 mənzil veriləcək. Bu günə qədər mənzil almayan bütün şəhid ailələri yaxın gələcəkdə mənzillərlə təmin ediləcəklər."

Həmçinin ölkəmizin başçısı müşavirədə cəmiyyətimizin digər həssas qrupu olan məcburi köçkünlərə göstərilən diqqət və qayğının 2019-cu ildə daha geniş miqyas alacağının anonsunu verib. Bildirib ki, cari ildə 6-7 min köçkün ailəsi yeni mənzillərlə, evlərlə təmin ediləcək. Bununla da bu insanların mənzil-məişət şəraitinin yaxşılaşması prosesi daha da sürətlənəcəkdir.

Cənab Prezidentin diqqət etdiyi çox mühüm məsələlərdən biri də əvvəldə qeyd etdiyimiz kimi, problemli kreditlərlə bağlıdır. Dövlət rəhbəri bildirib ki, artıq hökumətə göstəriş verib və bu problemin həllinin mexanizmi hazırlanır. O da vurğulanıb ki, bu məsələ digər ölkələrdəkindən daha yüksək səviyyədə həll olunmaqla bir nümunəyə çevriləcəkdir: " Çünki biz bilirik ki, buna oxşar addımların atılması ilə bağlı bəzi ölkələrdə müvafiq qərarlar qəbul edilmişdir, ancaq onlar icra edilməmişdir. Yəni burada xoş niyyətin olması əsas şərt deyil. Burada, əlbəttə ki, düzgün təhlilin aparılması və vətəndaşlar üçün ən məqbul variantın seçilməsidir."

Bu bir həqiqətdir ki, bu gün Azərbaycan dövlətinin sosial sahədə atdığı addımlar öz miqyasına, təsir dairəsinə, əhəmiyyətinə görə heç bir ölkədə müşahidə olunmur. Məhz buna görə də açıq mətnlə demək olar ki, Azərbaycan hakimiyyətinin yürütdüyü sosial siyasət həqiqətən də inqilabi xarakter daşıyır. Bu, ilk növbədə cənab Prezidentin, Azərbaycan dövlətinin öz vətəndaşına diqqət və qayğısının təzahürüdür. Təbii ki, görülən bütün işlərin arxasında Azərbaycan vətəndaşının həyat səviyyəsinin yüksəldilməsi amili dayanır.

İllərdir aldıqları mənzillərin qeydiyyata alınması və onların özəlləşdirilməsi prosesində ciddi problemlərin olması da vətəndaşları ciddi şəkildə narahat edirdi. Məhz bu problemlərin həlli üçün cənab Prezidentin fevralda imzaladığı "Bəzi çoxmənzilli binaların istifadəyə verilməsinin sadələşdirilməsi haqqında" Fərmanı da təqribən 400-dək binanın, o cümlədən 50 minədək yeni mənzil sahibinin illərdir həllini gözləyən problemini çözməyə hesablanıb.

Qeyd edək ki, fevralın 25-də müşavirədən dərhal sonra Prezident İlham Əliyev "Əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində əlavə tədbirlər haqqında" daha bir Sərəncam imzalayıb. Sərəncama əsasən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə aşağıdakılarla bağlı normativ hüquqi aktların layihələrini on beş gün müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etmək tapşırılıb. Sərəncamda yaşa görə sosial müavinətin məbləğinin 130 manata, sosial müavinətin məbləğinin I qrup əlilliyə görə 150 manata, II qrup əlilliyə görə 130 manata, III qrup əlilliyə görə isə 110 manata, sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara sosial müavinətin məbləğinin 150 manata, ailə başçısını itirməyə görə sosial müavinətin məbləğinin 80 manata, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların qəyyumlarına (himayəçilərinə) sosial müavinətin məbləğinin 100 manata, müddətli həqiqi hərbi xidmət qulluqçularının uşaqlarına sosial müavinətin məbləğinin 100 manata, beşdən çox uşağı olan qadınlara sosial müavinətin məbləğinin hər uşaq üçün 55 manata, uşağın anadan olmasına görə sosial müavinətin məbləğinin 200 manata, dəfn üçün ödənilən sosial müavinətin məbləğinin 300 manata çatdırılması nəzərdə tutulur. Həmçinin I qrup əlillərə və ya sağlamlıq imkanları məhdud 18 yaşınadək şəxslərə qulluq üçün əmək pensiyasının sığorta hissəsinə əlavə əvəzinə I qrup əlilliyi olan şəxslərə qulluq edənlərə və sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara qulluq edənlərə 50 manat məbləğində Azərbaycan Respublikası Prezidentinin təqaüdü təsis edilir.

Eyni zamanda, müharibə veteranlarına kommunal, nəqliyyat və digər xidmətlərə görə sosial müavinət, həbelə döyüşən ordunun tərkibində xidmət etmiş müharibə əlillərinin əmək pensiyasının sığorta hissəsinə əlavə əvəzinə 80 manat məbləğində Azərbaycan Respublikası Prezidentinin təqaüdü təsis edilir, müharibə əlillərinə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün məbləği I qrup əlilliyə görə 250 manata, II qrup əlilliyə görə 230 manata, III qrup əlilliyə görə 210 manata çatdırılır.

Bir sözlə, bu Sərəncamda bir çox istiqamətlər üzrə hətta 100 faiz artımlar nəzərdə tutulub. Məhz bu Sərəncam 500 mindən çox əhalini əhatə edəcək. Cənab Prezidentin müşavirədə də qeyd etdiyi kimi, bu, sosialyönümlü Sərəncam və fərmanlar çox ciddi sosial paketdir: "Bir daha demək istəyirəm ki, bu paketin reallaşması, ilk növbədə, bizim gücü siyasi iradəmizə söykənir. Çünki mən dəfələrlə demişəm, bir daha demək istəyirəm ki, bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır."

Azərbaycan dövlətinin bu sosial paketini xalqımız da yüksək qiymətləndirir. İndi ölkə ziyalılarından başlamış sıravi vətəndaşlara kimi bütün insanlar bu addımları cənab Prezidentin seçkiöncəsi verdiyi vədlərinə əməl etməsi kimi dəyərləndirirlər.

**Elçin Zaman,**
***"İki sahil"***

## Xocalı soyqırımı cinayətkar erməni siyasətinin tərkib hissəsidir



Fevralın 26-da Daşkəsən rayon ictimaiyyətinin 4 mindən çox nümayəndəsinin iştirakı ilə rayonun Şəhidlər xiyabanında Xocalı şəhidlərinin xatirəsini anım mərasimi keçirilib. Rayon rəhbərliyi, hərbçilər, ictimaiyyət nümayəndələri və sakinlər şəhid məzarlarını ziyarət ediblər.

Daşkəsən Rayon İcra Hakimiyyətinin başçısı Əhəd Abıyev ümumrayon anım mərasimində şəhid ailələri, Qarabağ müharibəsi əlilləri və iştirakçıları, rayonun ağsaqqalları və veteranları ilə görüşüb, onların qayğıları ilə maraqlanıb.

Əhəd Abıyev bildirib ki, Xocalı soyqırımı haqqında həqiqətlər dövlətimiz, eləcə də xarici ölkələrdə fəaliyyət göstərən Azərbaycan diasporları tərəfindən dünya ictimaiyyətinə, xarici ölkələrin parlamentlərinə çatdırılır: "Azərbaycan xalqının və ümumən insanlığın əleyhinə yönəldilmiş bu son dərəcə ağır hərbi cinayət beynəlxalq miqyasda öz hüquqi-siyasi qiymətini almaqdadır. Ölkə Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin apardığı uğurlu siyasət sayəsində hazırda bu proses Azərbaycanın xarici siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyənləşdirilib. Bu gün Xocalı həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması hər bir azərbaycanlının borcudur. Xocalı faciəsi Azərbaycan xalqının heç vaxt unudulmayacaq və ibrət dərsi götürüləcək qan yaddaşıdır. Biz əminik ki, Xocalı soyqırımının günahkarları öz layiqli cəzalarını alacaqlar. Çünki bu dəhşətli cinayət cəzasız qala bilməz. Allah bütün şəhidlərimizə rəhmət eləsin, ruhları şad olsun!".

**Cavid Əkbərov, *"İki sahil"***

# "İlham Əliyevin oğlu hazırda hərbi xidmətdədir, bəs sizin oğlunuz haradadır?"

## VƏTƏNDAŞLARDAN ƏLİ KƏRİMLİYƏ SƏRT TƏPKİ







**Dağıdıcı düşərgənin "başbilənlərindən olan AXCP sədri Əli Kərimli Xocalı faciəsinin 27-ci ildönümü ilə əlaqədar Bakıda keçirilən anım mərasimində yenə də aqressivlik nümayiş etdirib. Belə ki, bir vətəndaş AXCP sədri Əli Kərimliyə yaxınlaşaraq ona Avropada əyləncəli həyat tərzi keçirən oğlu ilə bağlı suallar verib. Belə ki, vətəndaş oğlunun kef məclisindəki şəklini Ə.Kərimliyə göstərərək soruşub ki, "Oğlunuz Avropada necə maliyyələşir, deyə bilərsinizmi?". Əli Kərimli və onun ətrafındakıların- erməniпərəst qüvvələrin qrant pullarından yeyərək yağ içində böyrək kimi bəslənib Azərbaycan əleyhinə təbliğat aparanlar həmişə olduğu kimi, qara-qışqırıq salaraq etiraz ediblər. Bundan sonra vətəndaş cibindən daha bir şəkil çıxararaq sual edib:**

**"Baxın, İlham Əliyevin oğlu hazırda hərbi xidmətdədir, Vətənə şərəflə xidmət edir, bəs sizin oğlunuz haradadır?".**

**Bu suallar qarşısında Ə.Kərimli vətəndaşı təhqir edib.**

# Əli Kərimlinin "arxamızca on minlər gəlir" iddiası yenə ifşa olundu



Bəşər tarixinin ən qanlı cinayətlərindən biri olan Xocalı soyqırımının 27-ci ildönümü ilə əlaqədar fevralın 26-da Bakıda keçirilən ümumxalq yürüşünün önündə Prezident İlham Əliyev, Birinci vitse-prezident Mehriban Əliyeva, dövlət və hökumət rəsmiləri, tanınmış ziyalılar, ictimai xadimlər gedirdilər. Lakin uzun illərdən bəri xalqla bir yerdə olmadıqlarını açıq nümayiş etdirən, özünü radikal müxalifətin təmsilçisi elan edən qüvvələr bu dəfə də iç üzlərini göstərərək Azərbaycan xalqının mənəvi dəyərlərini nəzərə almadıqlarını növbəti dəfə sübuta yetirdilər.

Xalqımızın qan yaddaşına əbədi yazılan 20 Yanvar hadisələrinin ildönümü zamanı siyasi təxribata əl ataraq Şəhidlər xiyabanında qarşıdurma yaradan radikal müxalifət növbəti dəfə xalqla bir yerdə olmadığını ortaya qoydu. Fevralın 26-da Prezident İlham Əliyevin rəhbərliyi altında sayı on minlərlə olan insan ordusu "Ana harayı" abidəsi önünə yürüş edərək millətin özünün qəhrəmanlıq və faciə tarixinə nə qədər yüksək dəyər verdiyini nümayiş etdirdi. Ölkə ziyalıları, ictimai xadimlər, gənclər, tələbələr və digər təbəqələrin nümayəndələri dövlət başçısı ilə bir cərgədə addımlayaraq 1992-ci ilin soyuq fevral günlərində amansız faciə ilə üzləşən günahsız insanların xatirəsini ürək ağrısı ilə yad etdilər.

Bu hüzn günündən kimsə özünü reklam etmək, siyasi ambisiya ortaya qoymaq məqsədilə istifadə etmək niyyətində deyildi. Çünki bu möhtəşəm yürüşü xarici kanalların jurnalistləri də izləyirdilər. Onlar öz açıqlamalarında sıravi insanların üzlərində 27 il əvvəl baş vermiş soyqırımın ağrılarını gördüklərini bildirirdilər. Ümumxalq yürüşünü şərh edən müşahidəçilər onu da qeyd etdilər ki, Azərbaycan xalqı möhtəşəm izdihamla öz tarixini unutmadığını bütün dünyaya nümayiş etdirdi. Bu hadisə həm də onun göstəricisidir ki, xalq öz liderinə inanır. Xalq cənab Prezident İlham Əliyevlə birgə addımlamaqla Qarabağ probleminin həllinə məhz Prezident İlham Əliyevin səyləri sayəsində nail olacağına əmindir.

Dünya telekanalları öz ölkələrinə canlı yayım edərkən məhz Azərbaycanda xalq-lider birliyini xüsusi qabartmağa çalışırdılar. Lakin uzun müddət müxalifətçiliklə məşğul olan, anarxiya və hərc-mərcliyi məqsədlərinə çatmağın yeganə yolu hesab edən radikal qüvvələr hamımız üçün bu ağır gündə də xalqa xəyanət etmək yolunu tutdular. Böyük izdihamdan kənar qalan, 5-10 nəfər tərəfdaşları ilə Xocalı faciəsini qeyd etmək fikrinə düşən radikal dairələr özlərini tamamilə ifşa etdilər. Şübhəsiz ki, Əli Kərimlinin Xocalı abidəsini ziyarətə gedərkən ətrafında bu qədər az adam olmasının səbəblərindən biri də odur ki, havadarları bu aksiya üçün ona pul ayırmayıblar.

Bir daha aydın görünür ki, məhz onların hakimiyyət uğrunda mübarizə apardıqları dönəmdə baş verən faciələr bu insanlar üçün yalnız siyasi təzyiq vasitəsidir. Lakin bu niyyət heç vaxt baş tutmayacaq. Azərbaycan xalqı müxalifətin aksiyasına dəstək verməməklə bu dairələrin sosial bazadan məhrum olduğunu tam olaraq təsdiq etdi. Bu küçə müxalifətinin xaricə sığınan antiazərbaycan qüvvələri ilə birlikdə təşkil etdiyi bu aksiya həm də onun göstəricisidir ki, radikallığı artıq hobbiyə çevirən Əli Kərimli və bəzi şəxslər ümumi rəyi dəyişə bilməzlər. Xalq bu insanları çoxdan "tarixin zibilliyinə" atıb. Beləliklə, Əli Kərimli və onun ətrafındakı insanlara yalnız xəyanətkar adı verək olar.

**Cavid Əkbərov, *"İki sahil"***

## TÜRKİYƏ XİN XOCALI SOYQIRIMINI QINAYAN AÇIQLAMA YAYIB

Türkiyənin Xarici İşlər Nazirliyi (XİN) Xocalı soyqırımının 27-ci ildönümü ilə bağlı açıqlama yayıb. "İki sahil" AZƏRTAC-a istinadən xəbər verir ki, bu barədə Nazirliyin rəsmi saytında məlumat yerləşdirilib. Açıqlamada bildirilir ki, Ermənistan dövləti Azərbaycan ərazisinin 20 faizini işğal altında saxlayır, bir milyondan artıq insan ev-eşiyindən didərgin düşüb. Xocalı soyqırımı barədə ətraflı məlumatın yer aldığı açıqlama belə tamamlanır: "...bu qətliamı və Ermənistanın Azərbaycan ərazilərinin bir hissəsini işğalda saxlamasını şiddətlə qınayırıq. Azərbaycanlı qardaşlarımızın 27 il əvvəl Xocalıda məruz qaldıqları qətliamın acısını hiss edir və bölüşürük. Bu faciədə həlak olanlara Allahdan rəhmət diləyir, Azərbaycana başsağlığı veririk".

## tnews.uz: "ERMƏNİLƏR QAFQAZA NECƏ GƏLİB? SENSASİYALI FAKTLAR"




Özbəkistanın tnews.uz portalında rus dilində "Ermənilər Qafqaza necə gəlib? Sensasiyalı faktlar" sərlövhəli məqalə yerləşdirilib.

"İki sahil" AZƏRTAC-a istinadən xəbər verir ki, məqalədə Azərbaycan alimi, tarix üzrə fəlsəfə doktoru Nazim Mustafanın bu məsələ ilə bağlı məruzəsindən istifadə edilib. Materialda alimə istinadla bildirilir ki, bir çox erməni alimləri və Avropa tədqiqatçıları bu haqda araşdırmalar aparıblar. Erməni dilçi alimi Manuk Abeqyan yazır ki, erməni dili erməni tayfası kimi hibriddir. Hazırda istifadə edilən erməni əlifbası Ön Asiyada yaşayan xalqların əlifbası olub. Erməni əlifbasını yaradan Mesrop Maştos isə tanınmış tarixçilər tərəfindən ciddi qəbul edilmir.

Beşinci əsrdə yaşayan erməni tarixinin "atası" Movses Xorenasinin "Hayların tarixi" əsəri sonralar "Ermənilərin tarixi" adı ilə çap edib. Bu kitabın adı rus dilinə "Ermənistanın tarixi" kimi tərcümə edilib.

Yazıda bildirilir ki, erməni tarixçisi Leo (Arakel Babaxanyan) isə belə hesab edir: Movses Xorenasinin yazdığı tarix uydurulmuş tarixdir.

Digər erməni tarixçisi Baxşi İşxanyan isə yazır ki, "böyük Ermənistan"ın ərazisi Rusiyanın və Kiçik Asiyanın sərhədlərindən kənarda olub.

Rus qafqazşünası İvan Şopen isə belə hesab edir ki, haylar və ermənilər ayrı-ayrı məfhumlardır.

## ANQOLANIN NEFT HASİLATI AZALIB

Anqolanın gündəlik neft hasilatı 2018-ci ildə 1,632 milyon barreldən 1,478 milyon barrelə düşüb. Anqolanın "Sonangol" dövlət enerji şirkəti bunun əsas səbəbini neft yataqlarının yaşlanmasında görür.

Xatırladaq ki, "reuters.com" saytının yaydığı məlumata görə, Afrikanın ikinci ən böyük xam neft hasilatçısı olan Anqola ötən il hasilatda azalmanın qarşısını almaq və iqtisadi sabitliyi təmin etmək üçün yeni bloklarda kəşfiyyata başlanılması ilə bağlı müqavilələr imzalamışdı.

## ÇİNDƏ BÖYÜK QAZ KƏŞFİ



Çinin "CNOOC" dövlət enerji şirkəti Bohay dənizi ərazisində yüksək keyfiyyətli və çox məhsuldar neft kəşfinə imza atıb. Ərazidə 100 milyard kubmetrdən artıq qaz ehtiyatlarının olduğu ehtimal edilir.

Bohay dənizi ərazisi Pekin-Tianşin-Hebey regionundan 100 km aralıda yerləşir.

Yeni qazılmış "Bozong 19-6" qaz quyusunda qaz kəşfi barədə Çinin Mərkəzi Televiziyası xəbər verib. Məlumatda bildirilir ki, bu son 50 ildə Bohay körfəzi hövzəsində ən böyük neft və qaz kəşfidir və bu kəşfdən minlərlə sakin yüzillər boyunca faydalana biləcək.

Hasilata başlanılan kimi təbii qazın mövcud kəmərlərlə birbaşa bazara çıxarılması nəzərdə tutulub.

## KRIMDA TƏDQİQATLARA BAŞLANILACAQ



Böyük qaz ehtiyatına malik olduğu proqnozlaşdırılan Krım sahillərində ciddi tədqiqatlara başlanılacaq. Məlumatı Rusiya Elmlər Akademiyasının rəhbəri Aleksandr Sergeyev açıqlayıb.

"Biz Krım şelfinin işlənməsi məsələsini ortaya qoymaq istəyirik. Aparılan tədqiqatlar onu göstərir ki, orada kifayət qədər böyük təbii qaz ehtiyatı vardır",- deyə o "RIA Novosti" agentliyinə bildirib.

Hazırda Krım yarımadasında səfərdə olan Sergeyev Krımın "Chernomoreneftgaz" hasilat şirkətinin rəsmiləri ilə görüşməyi planlaşdırır. Elmlər Akademiyasının rəhbəri bu ərazidə ehtiyatın olmasına çox inandığını və Krım rəhbərliyinin də kəşfiyyata dəstək göstərəcəyinə ümid etdiyini bildirib.

# Xalqın rifahı naminə atılan addım

Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan uğurlu sosial siyasət 2003-cü ildən Prezident İlham Əliyev tərəfindən məqsədyönlü şəkildə davam etdirilir. Artıq 16 ildir ki, uğurla davam etdirilən bu mərhələ ölkənin sosial siyasətində inqilabi dəyişikliklərə səbəb olub. Əhalinin sosial müdafiəsinin yaxşılaşdırılması, işsizliyin aradan qaldırılması, aztəminatlı ailələrə, şəhid ailələrinə, veteranlara dövlət qayğısının, pensiya və təqaüdlərin, maaşların, o cümlədən minimum əməkhaqlarının artırılması istiqamətində atılan addımlar Azərbaycanın şaxələndirilmiş iqtisadiyyatının nəticələridir.

Fevralın 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanında iqtisadi və sosial məsələlərlə bağlı keçirilən müşavirə bir daha bunu sübut etdi.

**İqtisadçı-ekspert Vüqar Bayramov sözügedən məsələ ilə bağlı "İki sahil"ə açıqlamasında bildirdi ki,** müşavirə ölkəmizdə qarşıdakı aylarda da davamlı islahatların həyata keçiriləcəyi və bu istiqamətdə fəaliyyətin davam etdiriləcəyi anlamına gəlir: "Geridə qalan 2019-cu ilin ötən 2 ayı sosial təminatın gücləndirilməsi baxımından yadda qaldı. Bir tərəfdən, minimum əməkhaqqı, pensiyalar artırıldı, sosial sferada vətəndaşları maraqlandıran kifayət qədər ciddi və əhəmiyyətli işlər görüldü. Digər tərəfdən, istismara alınmayan binaların istismara alınması ilə bağlı döv-



lət başçısı tərəfindən imzalanan müvafiq Fərmana uyğun olaraq bina evlərində yaşayan mənzil sahiblərinin çıxarışla təmin edilməsi ilə bağlı aparılan tədbirlər xüsusi qeyd olunmalıdır".

Ekspert, həmçinin onu da qeyd etdi ki, bu gün bir çox vətəndaşların narahatlığına səbəb olan məsələlərdən biri də problemli kreditlərdir ki, bu məsələ də müşavirədə öz həllini tapdı: "Prezident İlham Əliyevin tapşırığı əsasında bu istiqamətdə müəyyən addımın atılması nəzərdə tutulub. Bu da məsələnin yaxın zamanlarda həll edilməsi anlamına gəlir. Praktiki olaraq bu ondan xəbər verir ki, hazırda Azərbaycan vətəndaşını maraqlandıran sosial məsələlər dövlət başçısının diqqət mərkəzindədir. Xüsusən son aylarda sosial təminatın gücləndirilməsi ilə bağlı atılan addımlar, ölkə başçısı tərəfindən fərqli problemlərin araşdırılması və həll edilməsi ilə bağlı verilən göstərişlər vətəndaşların sosial təminatının gücləndirilməsi, bütövlükdə iqtisadiyyatın inkişafı və inklüziv inkişaf baxımından önəmlidir ".

**Milli Məclisin deputatı Azər Badamov isə açıqlamasında bildirdi ki,** Prezident İlham Əliyevin yanında iqtisadi və sosial məsələlərlə bağlı keçirilən müşavirə bir daha dövlət başçısının xalqın problemləri ilə yaxından maraqlandığını sübuta yetirdi: "Ötən ayın axırında şəhid ailələrinə verilən birdəfəlik yardımın əhatə dairəsinin genişləndirilməsi, minimum əmək haqqının, əmək pensiyalarının, tələbələrə verilən təqaüdlərin artırılması, yaxud da çoxmənzilli binaların sənədləşdirilməsi ilə bağlı sərəncamların hamısı Azərbaycan vətəndaşının rifahının yaxşılaşmasına xidmət edir. Fevralın 25-də cənab Prezidentin imzaladığı növbəti Sərəncam da sosial müavinətlərin yenidən artırılması ilə bağlıdır. Sözsüz ki, ölkə başçısı tərəfindən atılan bu cür addımlar ölkə əhalisinin rifahının yaxşılaşmasına xidmət edəcəkdir".

Deputat onu da qeyd etdi ki, Prezident İlham Əliyev iqtisadi və sosial məsələlərlə bağlı müşavirədə bir sıra vacib məqamlara da toxunub: "Bu ilin yanvar ayının yekunlarına nəzər salan dövlət başçısı onu da diqqətə çatdırdı ki, ümumi daxili məhsulun artımının təxminən 3 faiz təşkil etməsi, qeyri-neft sektorunda sənaye istehsalının təxminən 14 faiz artması göz önündədir. Təkcə bir ay ərzində vergi orqanları plandan əlavə 80 milyon, gömrük orqanları isə plandan əlavə 20 milyon manatdan çox vəsait toplayıb və ümumi daxilolmalar 105 milyon manat artıb. Bütün bunlar isə ölkəmizin iq-



tisadi mənzərəsini göstərir. İqtisadi dinamiklik sosial islahatlar paketini gücləndirməyə imkan verir. Bu gün bizim üçün önəmli məsələlərdən biri olan problemli kreditlərin aradan qaldırılması prosesidir ki, adıçəkilən müşavirədə bu problem də diqqət mərkəzində oldu. Bu problem 2015-ci ildə manatın dəyərdən düşməsi nəticəsində əhalinin xarici valyuta ilə aldığı kreditlərlə bağlı yaranmışdı. Cənab Prezidentin də qeyd etdiyi kimi, bu məsələ ilə bağlı xüsusi işçi qrupu yaradılıb və qrup məsələnin vətəndaşların maraqlarına uyğun həlli üçün iş görür və yaxın gələcəkdə müvafiq addımlar atılacaq. İnanıram ki, yaxın günlərdə problemli kreditlər məsələsi öz həllini tapacaqdır. Sözsüz ki, burada əsas məsələ Azərbaycan vətəndaşının rifahının və sosial vəziyyətinin yaxşılaşdırılmasıdır. Aparılan bütün islahatlar və imzalanan sərəncamlar bir daha onu göstərir ki, Azərbaycan dövlət siyasətinin təməlində ölkə vətəndaşının rifahı məsələsi dayanır".

**Mənsumə Babayeva,**
***"İki sahil"***

*77 yaşlı Baloğlan Allahyarov:*

# Mən bu gün də Xocalıda itirdiyim əzizlərimin ruhları ilə danışıram

**"Mingəçevir şəhərində xocalılılar yaşayan qəsəbədə məskunlaşanlar arasında eləsi var ki, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə 30-40 nəfər qohumunu itiriblər". Bu fikri "İki sahil" qəzetinə açıqlamasında Xocalı soyqırımının şahidi olmuş 77 yaşlı Baloğlan Allahyarov söylədi.**

Bildirdi ki, həmin gecə Ermənistan silahlı qüvvələri Sovet İttifaqının 366-cı motoatıcı alayının hərbi texnikası və şəxsi heyətinin köməyi ilə Xocalı şəhərində törətdikləri soyqırımı nəticəsində bütün ailə üzvlərini itirib: "Oğlumu, gözümün ağı-qarası Etibar balamı, yoldaşımı, gəlinimi itirdim. Onların cəsədlərini də tapa bilmədim. Mən bu gün də onların ruhları ilə danışıram. Heç olmasa, bircə dəfə Xocalı torpağını görsəydim, əzizlərimin yanına üzüağ gedərdim".

Xocalıdan olan Qarabağ müharibəsi veteranı Alim İsmayılov: "Kaş elə bir gün gələydi, bizdən Xocalıya qayıdışla bağlı müsahibə alaydınız" sözləri ilə söhbətimizə qoşuldu:





"Biz artıq 27 ildir o günü gözləyirik. Onu da deyim ki, Xocalı soyqırımı dünyada misli görünməyən bir dəhşət idi. Hələ də şəhərimizin yerlə-yeksan edilməsi, insanların amansızlıqla qətlə yetirilməsi gözlərim önündən getmir. İllər ötsə də, Xocalı soyqırımının yarası köz bağlamır. İndiyədək Xocalı soyqırımına beynəlxalq aləmdə hüquqi-siyasi qiymətin verilməməsi beynəlxalq qurumların erməni mafiyasının əlaltılarına çevrilmələrindən, onların xristian "təəssübkeşliyindən" xəbər verir. Bax, hamı kimi məni də yandırıb yaxan elə budur".

Xocalılılar, eyni zamanda, dövlət səviyyəsində onlara göstərilən diqqət və qayğıdan da söz açdılar. Əslən Xocalıdan olan Göyüş Həsənov dedi: "Son aylar dövlət başçımızın imzaladığı Fərman və sərəncamlara əsasən, 100 minə yaxın tələbənin təqaüdünün yüksəldilməsini, minimum əməkhaqqının 38 faiz artırılmasını, minimum pensiyaların 116 manatdan 160 manata çatdırılmasını, şəhid ailələrinə müavinətlərin verilməsini, eləcə də digər müavinətlərin və Prezidentin aylıq təqaüdlərinin əhəmiyyətli dərəcədə artırılmasını, həmin təqaüdlərin əhatə dairəsinin daha da genişləndirilməsini vətəndaşlarımızın sosial rifahının daha da yaxşılaşdırılması istiqamətində atılan addımlar kimi dəyərləndiririk. Şübhəsiz, bütün bunlardan biz xocalılılar da faydalanırıq. Dünən isə ölkə başçısı məcburi köçkünlər və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsini gücləndirmək və onlara dövlət qayğısını artırmaq məqsədilə məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər üçün vahid aylıq müavinətin məbləğinin 2019-cu il aprelin 1-dən 50 faiz artırılması haqqında Sərəncam imzaladı. Təbii ki, bu da bizim rifahımızın daha da yaxşılaşmasına öz töhfəsini verəcək". Yeri gəlmişkən, qeyd etmək istəyirəm ki, fevralın 25-də Prezident İlham Əliyevin yanında iqtisadi və sosial məsələlərlə bağlı keçirilən müşavirədə dövlət başçısı bildirdi ki, əgər keçən il 5900 köçkün ailəsi üçün mənzillər, evlər tikilmişdirsə, bu il 7 minə qədər köçkün ailəsi yeni mənzillərlə, evlərlə təmin ediləcək. Mingəçevirdə 20 min qaçqın və məcburi köçkün, o cümlədən 350 nəfər Xocalı sakini məskunlaşıb ki, onların da 80 faizi mənzillə təmin olunub".

Həmsöhbətimiz Mingəçevir Şəhər İcra Hakimiyyətinin başçısı da xocalılıların problemlərinin daim diqqət mərkəzində saxladığını vurğuladı: "Amma bütün bunlar o demək deyil ki, biz doğma yurdyuvamızı yaddan çıxarmışıq. Nə qədər naz-nemət içərisində yaşasaq da, nə qədər qayğı və diqqət göstərilsə də öz əvvəlki yurdyuvamıza qayıtmaq istəyirik. Əminik ki, möhtərəm Prezidentimiz İlham Əliyev bizim bu arzumuzu da reallaşdıracaq".

**Qvami Məhəbbətoğlu,**
***"İki sahil"***

NEFT TARİXİMİZ...

# AZƏRBAYCAN NEFT SƏNAYESİ XIX ƏSRİN II YARISI - XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ (1872-1920-ci illər)

## İltizam sisteminin ləğvi və Azərbaycan neft sənayesi 1873-1913-cü illərdə

⇨ Əvvəli ötən saylarda

1874-1875-ci illərdə neft böhranı baş verərkən Rusiyada neftin və neft məhsullarının (kerosinin) qiyməti kəskin şəkildə aşağı düşdü. Bakıda və Sankt-Peterburqda neft işinin vəziyyətinə baxılması üçün hökumət komissiyası yaradıldı. Belə komissiyalardan birinin üzvü olan böyük kimyaçı-alim D.İ.Mendeleyev qeyd edirdi: "Başqaları ilə birlikdə mən də hesab edirdim ki, bəlanı aradan götürəcək və bizim neft işimizin gələcək inkişafına təsir edəcək birbaşa tədbir yalnız neftə qoyulan aksizin tamamilə onun üzərindən götürülməsidir. Ancaq məsələ çətin idi, çünki xəzinənin aksiz şəklində yığılan 300 min rublu itirməsinin, neft sənayesinin inkişafından milyonlarla rubl gəlir əldə ediləcəyi ilə mükafatlandırılacağı hamıya aydın deyildi".

D.Mendeleyevin neft və neft emalı məhsullarına qoyulan aksizin ləğv edilməsi barədə fikri ABŞ-a olan səfərindən sonra onu bu nəticəyə gəlməyə vadar etdi. " Neft sənayesini sıxışdıran aksiz Amerikada olduğu kimi bizdə də götürülməlidir...Burada nə nəzərdə tutulur? Böyük vergi qoymaq ağlasığmazdır, çünki bu bütün istehsalı öldürər... kiçik vergi qoymaq isə ağılsızlıqdır".

Rusiya İmperator Texniki Cəmiyyətinin Bakı şöbəsinin (İRTC BŞ) iclaslarından birində kimyaçı-alim qeyd edirdi ki, təkmilləşdirilmiş neft sənayesinin yaranması üçün ən əvvəl iltizam sistemi və kerosinə qoyulmuş aksiz ləğv olunmalıdır və bu Rusiyada neft işinin kapitalist inkişafına gətirib çıxaracaqdır. D.Mendeleyev qeyd edirdi: "... Mənim şəxsi fikrim nəinki neftə, hətta neceliyindən asılı olmayaraq kerosinə də qoyulmuş hər cür vergiyə qarşıdır... Vergi sənayeni sıxma-boğmaya salır, çünki hasil edəndə fabrikant da onu istehlakçıya yönəldir və nəticədə istehlak azalır. Hər halda sənaye üçün vergi ... sıxıntı və inkişaf yerinə durğunluq yaradır".

D.Mendeleyev Rusiyanın Maliyyə nazirləri M.Retnerə (1876-ci il), S.Qreyqə (1880-ci il) və N.Bunqeyə (1886-cı il) göndərdiyi məktublarda imperiyada neft işinin vəziyyətini geniş şərh edir və onun yaxşılaşdırılması üçün lazımi tövsiyələr verirdi. Belə ki, Rusiyanın Dövlət Əmlakı naziri M.N.Ostrovskiyə (tanınmış dramaturq A.N.Ostrovskinin qardaşı) ünvanladığı məktubunda o, yazırdı: "Bakı neft sənayesi, əgər ona sərbəstlik verilərsə, o zaman ondan gözlənilən nəticələrə cavab verəcəkdir ki, indi çıxarmaq imkanın olmadığı xeyli ucuz və müxtəlif çeşidli Rusiya neft məhsullarını dünya bazarına göndərə biləcəkdir".

D.Mendeleyevin bu fikrini əvvəllər "professor xəyalları" adlandıran Rusiyanın o zamankı maliyyə naziri M.X.Retner, nəhayət ki, alimi başa düşdü və bu da 1876-cı ildə aksizin ləğvinə dair qərarın çıxarılmasına təkan verdi. Bu isə Rusiyada neft işinin sürətli inkişafına bir daha geniş imkanlar yaratdı. Bu illər neft geologiyası və kimyası elminin geniş inkişafı diqqəti cəlb etməyə başladı. 1875-ci ildə A.A.Letniyin Rusiyanın neft sənayesinin inkişafının qısa xülasəsini verən "Bitumabənzər qazıntıların (mineralların) quru destilləsi" əsəri çap olundu. 1878-ci ildə professor K.İ.Lısenkonun neft işində əsas sayılan "Neft istehsalı" kitabı nəşr olundu.

Qeyd etmək lazımdır ki, 1877-ci il Azərbaycan neft sənayesinin intibah dövrü sayılır. 1878-ci ildə Bibiheybətdə qazılan quyulardan biri ilk dəfə fontan vurdu. Tezliklə H.Z.Tağıyevin və Zubolovun buradakı az tanınan mədənləri böyük müəssisələrə çevrildi. Neft sənayesinin inkişafı başlaması buraya kapital qoyan şirkətlərin sayını artırdı. Neft sənayesinə kapital axını xeyli çoxaldı. Əgər 1873-cü ildə Bakıda 12 şirkət fəaliyyət göstərirdisə, 1883-cü ildə onların sayı 79-a çatdı. 1878-ci ildə Bakıda 112, 1879-cu ildə 126 şirkət və şəxsi sahibkar var idi. Onlar nefti 411 desyatin sahədə hasil edirdilər. Bunların 259 desyatini dövlət torpağı və 152 desyatini fərdi sahibkarların torpağı idi. Dövlət torpaqları sahələrə bölünmüşdü - Balaxanı -149 desyatin, Suraxanı - 10, Bibiheybət -20, Binəqədi - 80. Fərdi sahibkarların torpaqları isə yalnız Sabunçu sahəsində yerləşirdi. 1879-cu ildə Bakı neft mədənlərində 18 min insan çalışırdı. 1872-1885-ci illər ərzində bu mədənlərdən 428,1 mln. pud neft hasil edilmişdi.

Sankt-Peterburq Dağ-mədən İnstitutunun professoru, neft kimyası üzrə məşhur mütəxəssis K.İ.Lısenko 1878-ci ildə qeyd edirdi ki, 1874-cü ildən başlayaraq buruq üsulu ilə qazılan quyuların sayı intensiv olaraq çoxalır və kəhriz üsulu ilə qazılan quyuların sayı isə azalır; yəni neft hasilatının əsas hissəsi buruq üsulu ilə qazılan quyuların payına düşür, amma kəhriz quyuları ikinci dərəcəli rol oynamağa başlayır. 1878-ci ildə Abşeronda 301 buruq üsulu ilə qazılan neft quyusu var idi, onlardan 251-i Balaxanı, Sabunçu, Ramanı və Zabratda yerləşirdi.

Azərbaycanın inkişaf etməkdə olan neft sənayesi yeni-yeni rayonları əhatə edirdi. 1878-ci ildə Bibiheybətdə Zubalovun və H.Z.Tağıyevin əvvəllər heç kimə məlum olmayan neft quyuları fontan vurduqdan sonra bura Bakı neft rayonunun ən iri neft mədənlərindən birinə çevrildi. Təkcə bu iki sahibkarın sahələrində XIX əsrin 90-cı illərində hasilat ildə 1 mln. tona çatırdı. İlk fontandan sonra burada Nobel qardaşlarının, S.Şibayevin, Bakı Neft cəmiyyətinin, Kuban-Qaradəniz cəmiyyətinin və digər sahibkarların şirkətləri fəaliyyət göstərməyə başladı.

1879-cu ildən köhnə əl üsulu ilə yeni dayaz neft quyularının qazılması dayandırılır və o vaxt üçün yeni texnikadan istifadə etməklə qazılmış quyuların sayı kəskin şəkildə çoxalmağa başlayır: ilk buxar maşınları tətbiq olunur, həcmli və quyunun dərinliyinə uyğun olan jelonkalar, altı açılan və neftin anbara getməsi üçün qoyulan novalçaya axını təmin edən uzun dəmir vedrələrdən istifadə olunur.

1879-cu il martın 24-də Azərbaycanda neft işinin inkişafına kömək edən Rusiya İmperator Texniki Cəmiyyətinin Bakı şöbəsi (RİTC BŞ) təsis edildi. Bu cəmiyyət Qafqaz və Abşeronda çıxarılan neftin kimyəvi tərkibinin və xassələrinin öyrənilməsində, həmçinin ondan səmərəli istifadə üsullarının hazırlanmasında mühüm rol oynamalı idi. Rusiya imperiyasının neft sənayesinin tarixində ilk dəfə olaraq "RİTC BŞ"-i qarşısında duran əsas vəzifələrdən biri Bakıda bu sahədə çalışan alimlərin, mühəndislərin və neft sənayeçilərinin səylərini birləşdirmək idi.



Cəmiyyətin 25 may 1879-cu ildə keçirilmiş ilk təsis yığıncağında onun sədri dağ-mədən mühəndisi Pavel Semyannikov, katibi texnoloq V.B.Abramoviç seçilmişlər. Sonralar isə bu təşkilata uzun illər tanınmış sahibkar Aleksandr M.Benkendorf rəhbərlik etmişdi. Cəmiyyətin 122 üzvü var idi və o, indiki Nizami küçəsi 115 nömrəli (yeri gəlmişkən, çox gözəl vəziyyətdə qalmış) binada yerləşirdi.

RİTC BŞ-nin çox böyük elmi ədəbiyyata malik kitabxanası vardı (1879-cu ildə, yəni cəmiyyətin təsis edilməsi ilə eyni vaxtda yaradılmışdı) və ondan şəhərin bütün ziyalıları istifadə edirdilər. Kitabxananın fonduna kimyaya, neftayırmaya, neft və maşınqayırmaya, energetika və metalların texnologiyasına, həmçinin təbiət elmlərinə aid çoxsaylı rus, ingilis və alman dillərində olan ədəbiyyat toplanmışdı.

1886-cı ildən Bakıda çıxan "Trudı BO İPTO" məcmuəsi (jurnalı) Rusiyada neft işinin problemlərini geniş işıqlandıran ilk dövrü nəşr idi (məcmuənin 1904-cü ilin may-avqust yubiley nəşrində İ.N.Qluşkovun "RİTC BŞ-nin fəaliyyətinin tarixi xülasəsi" məqaləsi çap olunur və orada şöbənin yarandığı ilk illərdə həyata keçirdiyi vəzifələr qeyd olunur).

Maraqlısı odur ki, kimyaçılarin, texnoloqların və mühəndislərin (sonralar onlar öz sahələrində məşhurlaşdılar) bütün işləri öncə RİTC BŞ-nin iclaslarında müzakirə olunur və sonra monoqrafiya şəklində çap olunurdu. Qeyd etmək lazımdır ki, RİTS BŞ-nin fəaliyyətində azərbaycanlı neft sahibkarları (H.Z.Tağıyev, A.M.Nağıyev) ilə yanaşı, ali texniki təhsil almış Mövsüm bəy Məmməd bəy oğlu Xanlarov və Fətulla Əsəd oğlu Rüstəmbəyov da fəal iştirak edirdilər. RİTC BŞ- nin üzvləri öz məqalələrini əvvəlcə "Trudı BO İPTO" məcmuəsində və Bakıda nəşr olunan "Neftyanoe delo" qəzetində (1908-ci ildən jurnal) çap etdirirdilər. 1920-ci ildən isə bu məcmuə "Azərbaycan Neft Təsərrüfatı" adı altında bu günə kimi nəşr olunur.

Bir sözlə, Rusiyada neft sahəsində elmi-texniki dövrü nəşrin əsasları 1886- cı ildə Bakıda qoyulmuş oldu.

1880-ci ilin mayında D.Mendeleyev oğlu Vladimir ilə yenidən Bakıya gəlir. Əsas məqsəd niyə Bakıda neft bol olduğu halda, ildə cəmisi 7 milyon pud istehsal olunur; onun hasilatını ləngidən nədir; niyə dənizə yaxın Bakı və Kuban neft mədənləri səmərəli istismar olunmur kimi suallara cavab tapmaq idi. Həmin il mayın 29-30-da H.Z.Tağıyev onları özünün yeni fontan quyusunun açılışına dəvət edir və bu fontana "Vladimir Mendeleyev"in adını verir. O Peterburqda dərc olunan "Qolos" adlı qəzetə Bakıdan göndərdiyi məktubunda yazırdı: " Ən başlıcası onu demək lazımdır ki, burada olan neft bolluğuna heç yerdə rast gəlinmir. Mən Pensilvaniyanı (ABŞ) və oradakı mənbələri görmüşəm və cəsarətlə təsdiq edirəm ki, şübhəsiz, burada (yəni Bakıda) neft daha çoxdur və hasilatı asandır... Bu günlərdə cənab Tağıyevin mədənində neft fontanının (ona mənim oğlumun adını verimişlər) açılışında iştirak etdim... Quyunu 50 sajen (106,5 m) dərinliyinə burada ad çıxarmış texnik cənab Lens qazmışdır, onun tətbiq etdiyi üsullar son dərəcə qəribədir və yerli torpaq şəraitinə uyğunlaşdırılmışdır. Bizim yanımızda quyunu tamamilə təmizlədilər və o, 10-15 dəqiqədən sonra elə güclü fontan vurdu ki, neftlə birgə 20-30 funt (girvəngə-təqribən 400 qram) ağırlığında daşları da atmağa başladı... Neft kütləsi var. İndi əsas məsələ bu kütləni işə salmağı, bütün Rusiyanı, Şərqi və Qərbi işıqlandırmaq və yağlamağı bacarmaqdır. Tək bakılıların bunu etməyə gücləri çatmaz; onlar öz işlərini görüblər və özü də məharətlə. Yeni qüvvələr və dərrakələr, uzaqgörənlik və bacarıq ... gərəkdir". O, Azərbaycan neft sənayesinin inkişafını yüksək qiymətləndirirdi: "Qafqazda neft sənayesi Pensilvaniyada olduğundan daha geniş miqyasda və daha yüksək səviyyədə inkişaf etdirmək üçün çox əsaslı dəlillər vardır".

Dünya şöhrətli alim Bakı neftinin əhəmiyyətini düzgün qiymətləndirir və onun gələcək perspektivini çox aydın təsəvvür edirdi.

Azərbaycan neft sənayesinin 1880-1890-cı illərdə əldə etdiyi ən böyük nailiyyət onun dünya bazarına çıxarılması olmuşdur. Xarici istehlakçılar Azərbaycan neft sənayesinin inkişaf sürətinə məəttəl qalmışdılar.

1880-ci ildə Azərbaycan neft sənayesinin yenidən təşkili həyata keçirildi və onun fəaliyyətinə nəzarət imperiya hökuməti tərəfindən mərkəzləşdirildi. Nəticədə, 1882-ci ildə neft hasilatı 50 mln. pud, 1894-cü ildə isə 340 mln. pud həcminədək yüksəldi. Neftin işlənməsinin təşkilində 1873-cü ildən sonra aparılan islahatlar xüsusi qeyd olunmalıdır. Belə ki, "Bakı Neft İstehsalçıları Cəmiyyəti"nin yaradılması ilə bu cəmiyyət tezliklə Xəzər-Qafqaz neft sənayesinin icra təşkilatına çevrildi. Cəmiyyətin fəaliyyətinə aşağıdakılar daxil idi: neftin istehsalı və onun nəqli, neft istehsalçılarından və neft emalçılarından yığılan verginin həcminin müəyyənləşdirilməsi. Bu cəmiyyət sənayenin inkişafına müsbət təsir edirdi, neft hasilatının və istehlak bazarının genişləndirilməsi üçün münbit şərait yaradırdı. Cəmiyyətin təşkilatçılıq bacarığı Bakı neft istehsalçılarına Rusiyanin neft sənayesində möhkəm mövqe tutmağa kömək edirdi. Cəmiyyətin Statistik İdarəsinin yaradılması Rusiya neft sənayesinin səmərəliliyinə ciddi təsir göstərdi. Əvvəllər dəqiq məlumatlar əldə etmək çox çətin idi və əsasən qiymətləndirməyə söykənirdi. Cəmiyyət həmçinin Bakının sosial və mədəni həyatının inkişafına da yardım edirdi: məktəblərin, yolların, xəstəxanaların tikintisini maliyyələşdirir, o cümlədən müəllimlərin, həkimlərin, dayələrin və kantor işçilərinin əmək haqlarını təmin edirdi.

⇨ Arda var

Cəbi Bəhramov
AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun elmi işlər üzrə direktor müavini, t.ü.f.d., dosent

## DEPUTAT: Xocalı faciəsinin qurbanları Türkiyə xalqının yaddaşında yaşayacaq



Xocalı faciəsinin qurbanları Türkiyə xalqının yaddaşında yaşayacaq. Bunu Trend-ə Türkiyə parlamentinin Ədalət və İnkişaf Partiyasından (AKP) deputatı Mehmet Əli Özkan deyib. Onun sözlərinə görə, Xocalı faciəsi XX əsrin ən qanlı faciəsidir: “ATƏT-in Minsk qrupu Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizamlanması üçün əlindən gələni etməlidir”.

Deputat qeyd edib ki, Xocalıda törədilmiş cinayət dünya ictimaiyyətinin gözü qarşısında baş verib və heç sübuta ehtiyacı yoxdur.

## Ukrayna telekanalında Xocalı soyqırımına dair film

Ukraynanın “Pravdatut” televiziya kanalı Heydər Əliyev Fondu tərəfindən Xocalı soyqırımı barədə hazırlanmış filmi nümayiş etdirib.

“İki sahil” AZƏRTAC-a istinadən xəbər verir ki, filmdə erməni silahlı qüvvələrinin 27 il bundan öncə 366-cı motoatıcı alayla birgə Xocalı şəhərində həyata keçirdikləri misli görünməmiş qətliamlar tarixi faktlarla Ukrayna ictimaiyyətinin diqqətinə çatdırılıb.

Azərbaycanın Poltavadakı fəxri konsulu Elşən Vəliyevin AZƏRTAC-a verdiyi məlumata görə, televiziya kanalı sənədli filmi fevralın 26-da və 27-də axşam saatlarında yenidən yayımlayacaq. “Bizim əsas məqsədimiz ermənilərin zaman-zaman Azərbaycana qarşı həyata keçirdikləri işğalçılıq və soyqırımı siyasətini kütləvi informasiya vasitələri ilə dünya ictimaiyyətinə çatdırmaqdır. Bu baxımdan son illər Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə bütün dünyada həyata keçirilən “Xocalıya ədalət!” kampaniyası erməni hiyləgərliyinin və qəddarlığının ifşa olunmasında müstəsna rol oynayıb. Biz də çalışırıq ki, Heydər Əliyev Fondu tərəfindən hazırlanmış, Qarabağ və Xocalı həqiqətlərini özündə əks etdirən filmləri Ukraynanın kütləvi informasiya vasitələrində nümayiş etdirməklə, üzərimizə düşən tarixi missiyanı yerinə yetirək”, - deyə fəxri konsul bildirib.

## Misirli deputatlar Xocalı faciəsi ilə bağlı bəyanat yayıblar

Misir Nümayəndələr Məclisinin Misir-Azərbaycan dostluq qrupunun rəhbəri professor Usamə əl-Abd qrup üzvlərinin adından Xocalı faciəsi ilə bağlı bəyanat imzalayaraq Azərbaycan-Misir parlamentlərarası dostluq qrupunun rəhbəri, Milli Məclisin deputatı, akademik Gövhər Baxşəliyevaya göndərib.

Misir-Azərbaycan dostluq qrupunun üzvləri bəyanatda 26 fevral 1992-ci il anım gününün ağrı-acısını bölüşdüklərini və bu məsələdə Azərbaycanla həmrəy olduqlarını qeyd ediblər.

Misirli deputatlar ümid etdiklərini bildiriblər ki, Xocalı faciəsi beynəlxalq hüquq prinsiplərinə, BMT Nizamnaməsinə tam uyğun şəkildə dünya ictimaiyyəti tərəfindən siyasi, qanuni və ədalətli qiymətini tapacaq.

## Polşalı publisist Xocalı soyqırımı barədə məqalə yazıb




Polşanın “decydent.pl” portalında polyak diplomat, uzun müddət xaricdə çalışmış jurnalist, publisist Yasek Pototskinin Xocalı soyqırımı ilə bağlı məqaləsi yerləşdirilib.

“İki sahil” AZƏRTAC-a istinadən xəbər verir ki, məqalədə Xocalıda baş vermiş soyqırımının qanlı nəticələri, dünya ictimaiyyətinin bu hadisəyə münasibəti və statistik məlumatlar əksini tapıb. Həmçinin qətliamın şahidi olmuş xarici KİV nümayəndələrinin bu hadisələri işıqlandırması və ermənilərin “quldur” kimi təqdim olunması vurğulanır.

Məqalədə, həmçinin beynəlxalq ictimaiyyətin Xocalı soyqırımını tanıması ilə bağlı da məlumat verilib və qeyd olunub ki, Polşanın Azərbaycandakı səfirliyi də hər il Xocalı soyqırımını yad edir və azərbaycanlıların kədərini bölüşür.

# Qiymət artımı: həqiqət, yoxsa şayiə?

Son günlərdə bəzi KİV-lərdə, eyni zamanda, sosial şəbəkələrdə qiymət artımı ilə bağlı məlumatlar yayılmaqdadır. Ancaq nədənsə ərzaq məhsullarının qiymətləri ilə bağlı yayılan belə məlumatlarda hər hansısa faktlara yox, əsassız fikirlərə üstünlük verilməkdədir.

Bu əsassız şayiələrdən fərqli olaraq vəziyyəti obyektiv qiymətləndirmək məqsədi ilə araşdırma apardıq. Çalışdıq ki, onun nəticəsini ümumiləşdirib bir yazıya yerləşdirək.



Əvvəlcə onu vurğulamaq lazımdır ki, ölkəmizin iqtisadi inkişafı istehlak bazarında da özünü büruzə verməkdədir. Belə ki, məhsul bolluğu, eyni zamanda, sahibkarlıq fəaliyyətinə yaradılan şərait özünü ticarət obyektlərinin sayında göstərir. Bu amili vurğulamaqda məqsədimiz istehlak bazarında rəqabətin mövcudluğuna, qiymət artımı imkanlarının xeyli məhdud olduğuna diqqəti çəkməkdir.

Məntiqlə belə olan təqdirdə qiymət artımına getmək sahibkarlıq subyekti üçün müştəri qıtlığı yaratmaqdan başqa bir şey deyil. Aydın məsələdir ki, müxtəlif ticarət obyektlərində müxtəlif qiymətlər təklif olunursa, şübhəsiz ki, alıcı özünə sərf edən varianta - daha ucuz qiymətə üstünlük verəcək. Elə bunun nəticəsidir ki, monitorinqlərimiz zamanı gündəlik istehlak mallarında nəinki qiymət artımına rast gəlmək mümkün oldu, hətta ticarət şəbəkələrində bu məhsulların qiymətləri demək olar ki, eyniyyət təşkil etməkdədir. Xüsusilə də şəkər tozunun, bitki və kərə yağlarının, süd, ət məhsullarının qiymətləri demək olar ki, eynidir. Söhbət ondan gedir ki, ticarət obyektləri arasında rəqabət birinci növbədə gündəlik istehlak məhsullarının qiymətlərindən başladığından subyektlər belə məhsullar üzrə qiyməti artırmağa, hətta onlara daha az ticarət əlavəsi tətbiq etməklə rəqibləri ilə mübarizədə maraqlıdırlar.

Bir nüansı da vurğulamaq lazımdır ki, dünya bazarlarında taxılın qiyməti hələ ötən ilin avqust ayından artmasına baxmayaraq, ölkədə çörək və un məmulatlarında bahalaşma müşahidə edilmir.

Bazarlara gəldikdə isə kənd təsərrüfatı məhsullarının qiyməti onun mənşəyinə, ölçüsünə görə dəyişir. Ayrı-ayrı məhsullar üzrə qiymətləri əks etdirməyə lüzum görməsək də, onu deməliyik ki, qiymət artımı da müşahidə edilmir. Məhsullar sadaladığımız amillər əsasında müvafiq qiymət intervalında dəyişir. Lakin daha münasib qiymətə məhsul almaq istəyənlərin daha çox həftəarası günlərdə yollarını bazardan salmaları məsləhətdir.

Ümumiyyətlə götürdükdə, Azərbaycanda istehlak mallarına, xüsusilə də ərzaq məhsullarına olan tələbatın yerli istehsalla bərabər, qonşu ölkələrdən idxalın da hesabına həyata keçirilməsi məhsul bolluğuna gətirib çıxarır. Xüsusilə də idxal məhsullarına aşağı dərəcədə gömrük rüsumlarının tətbiqi, kənd təsərrüfatı məhsullarının istehsalının vergidən azad edilməsi pərakəndə satış qiymətlərinin də aşağı olmasını şərtləndirir. Buraya, eyni zamanda, qonşu ölkələrin milli valyutalarında müşahidə edilən qeyri-sabitlik nəticəsində idxalın daha ucuz başa gəlməsi faktorunu da əlavə etsək, bu, yerli bazarda rəqabəti gücləndirir ki, nəticədə qazanan istehlakçı olur.

Bununla belə, heç şübhəsiz ki, çoxsaylı ticarət obyektlərinin mövcudluğu qeyri-gündəlik istehlak məhsulları üzrə həm də qiymət müxtəlifliyi deməkdir. Lakin belə hallar süni qiymət artımı deyil, bazar iqtisadiyyatı prinsiplərindən irəli gələn qiymət müxtəlifliyidir.

Bazar iqtisadiyyatı prinsipləri isə ticarətin liberallaşdırılmasını, azad ticarətin formalaşmasını tələb edir. Başqa sözlə, bu cür münasibətlərin formalaşdığı bir dövrdə malların və xidmətlərin böyük əksəriyyətinin qiyməti (tənzimlənən tariflər və qiymətlər istisna olmaqla) rəqabət şəraitində, tələblə təklif əsasında formalaşır və mal satan, iş görən tərəfindən müəyyən edilir.

Ancaq bu, “işbazların” mal və xidmətlərə istədiyi qiyməti qoyaraq süni bahalaşma yaratması anlamına da gəlməməlidir. Elə iqtisadiyyat naziri Şahin Mustafayevin ötən həftə “idxalda və daxili istehsalda payı 35 faizdən yuxarı olan idxalçı və istehsalçıların hamısı nəzarətdədir və onlar qiymətləri dövlətin razılığı olmadan dəyişə bilməz” fikri də bir daha onu deməyə imkan verir ki, vəziyyətə dövlət səviyyəsində nəzarət edilir və heç bir süni qiymət artımından söhbət gedə bilməz. Lakin bəzi “maraqlı şəxslər” ayrı-ayrı ticarət obyektlərində malların qiymətindəki kiçik fərqliliyi də süni qiymət artımı kimi təqdim edir, əhalidə “əmək haqqı və pensiyalarda artım olubsa, bu, bazara da təsir edəcək” kimi yanlış olan stereotipin formalaşdırılmasına çalışırlar. Təəssüf hissi ilə qeyd etmək lazımdır ki, “iqtisadçı-ekspert”lərin də qoşulduqları belə “kampaniyalar” ölkə başçısının rəhbərliyi ilə əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində atılan addımlara kölgə salmaq, süni şəkildə narazılıq yaratmaq məqsədi güdür.

# Əmanətlərin tam sığortalanmasının müddətinin artırılması nə vəd edir?

**Xəbər verildiyi kimi, Prezident İlham Əliyev müvafiq Sərəncamla “Əmanətlərin tam sığortalanması haqqında” Qanuna dəyişikliyi təsdiq edib. Bununla da Azərbaycanda əmanətlərin tam sığortalanması müddəti daha 1 il - gələn il martın 4-nə qədər artırılıb.**



Qeyd edək ki, Azərbaycanda 4 mart 2016-cı il tarixdən 3 il müddətinə olmaqla əmanətlərin tam sığortalanması sistemi mövcud idi və bu müddət bu ilin mart ayının 4-də bitəcəkdi.

Qanuna görə, fiziki şəxslərin əmanətləri tam məbləğdə sığortalıdır, bu şərtlə ki, milli valyutadakı əmanətin illik faiz dərəcəsi 15 faizdən çox, xarici valyutadakı əmanətin illik faiz dərəcəsi isə 3 faizdən çox olmasın. Elə bunun nəticəsidir ki, ötən müddət ərzində Əmanətlərin Sığortalanması Fondu (ADIF) bağlanmış banklardakı tam sığortalanmış əmanətləri kompensasiya edib. Məhz bunun müqabilində banklardan əmanətlərin çəkilməsi prosesi səngiyib.

Belə ki, “Əmanətlərin tam sığortalanması haqqında” Qanunun 5.2-ci maddəsində deyilir ki, 3 illik “müddət bitdikdən sonra tam sığortalanmış əmanətlər üzrə kompensasiyaların həcmi “Əmanətlərin sığortalanması haqqında” Azərbaycan Respublikası Qanununun 26.1-ci maddəsinə əsasən müəyyən edilir”. “Əmanətlərin sığortalanması haqqında” Azərbaycan Respublikası Qanununun 26.1-ci maddəsinə görə isə Fond tərəfindən hər bir bankda sığortalanmış əmanət üzrə 30 000 manatdan çox olmamaq şərti ilə kompensasiya ödənilir. Bu isə o deməkdir ki, müddətin uzadılmayacağı təqdirdə, bank fəaliyyətini dayandıracağı halda orada 30 000 manatdan çox əmanət saxlayanlar faktiki olaraq bu məbləğdən çox olan hissəni itirəcəkdilər. Ölkə başçısının Sərəncamı ilə bu müddətin daha bir il uzadılması isə məbləğlərindən asılı olmayaraq banklardakı əmanətlərin tam etibarlılığının müddətinin bir qədər də artırılmasına xidmət edir. Nəticədə bu, bank sektoruna olan inamın zaman etibarilə uzadılması ilə yanaşı, onlardan kapital axınının qarşısının alınmasına da imkan verir. Bu baxımdan əmanətlərin tam sığortalanmasının müddətinin artırılması bank sektoru üçün də olduqca əhəmiyyətlidir.

Bir nüansı da xatırladaq ki, “Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi”nə əsasən, Maliyyə Bazarlarına Nəzarət Palatası 2018-ci ilin sonunadək kapital dayanıqlılığı bərpa olunmayan bankların restrukturizasiyası (bankın satılması, aktivlərin və öhdəliklərin tam və ya qismən ötürülməsi, körpü bankın yaradılması və s. vasitələrlə) prosesini bitirməli idi. Yəni, bank sistemi sağlamlaşdırılmalı, bunun mümkün olmadığı banklar isə ləğv edilməli idi. Lakin əmanətlərin tam sığortalanmasının daha bir il uzadılması bank sisteminin sağlamlaşdırılması prosesinin davam etdiyini, bununla belə müddətin elə də böyük olmaması prosesin yekunlaşmağının çox da uzaqda olmaması barədə fikir yürütməyə imkan verir.

İstənilən halda əmanətlərin tam sığortalanması müddətinin 1 il uzadılması bu dövrdə bank sektorundakı vəziyyətdən asılı olmayaraq əmanətlərin tam sığortalanması deməkdir ki, bu da onların taleyi ilə bağlı təşvişlərin yaranmasını aradan qaldırır.

**Hazırladı: Ceyhun Piriyev, *“İki sahil”***

# SOCAR-ın TENDERLƏRİ



*Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)*

## "Qaz İxrac" İdarəsi

**112 ədəd hava filtirinə (kartric) olan tələbatı təmin etmək məqsədilə açıq satınalma müsabiqəsi (22004-19) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***
* Müsabiqədə iştirak haqqında müraciət;
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi (müsabiqə təklifləri zərflərinin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır).

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 19.03.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan və ya ingilis dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***
* Müsabiqə təklifi bir əsli və iki surəti olmaqla 27.03.2019-cu il, Bakı vaxtı ilə saat 11.30-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***
* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan, rus və ingilis dilində əldə etmək istəyənlər üzrə 118 manat (ƏDV ilə birlikdə), və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***IV. Müqavilənin icra müddəti:***
* Satınalma müqaviləsinin 45 təqvim günü yerinə yetirilməsi tələb olunur.

***V. Satınalan təşkilatın ünvanı:***
AZ1025; Bakı şəhəri; Xətai rayonu; Rövşən Əliyev 19.

**Əlaqələndirici şəxs:**
Aqil Rəhimov (soyadı və adı).
Satınalmaların təşkili şöbəsinin böyük mühəndisi (struktur bölmənin və vəzifənin adı)
+ (994)012 521 07 00 (22178) (əlaqələndirici şəxsin karporativ telefon nömrəsi)
Mob: +(994)50 842 21 78
aqil.rehimov@socar.az (əlaqələndirici şəxsin korporativ elektron ünvanı)

***VI. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***
www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***
Zərflərin açılışı 27.03.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 11:30-da elanın V qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***VIII. Müsabiqənin nəticəsi haqqında məlumat:***
Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**"Qaz İxrac" İdarəsinin Satınalmalar qrupu**

# Ürəklərdə heykəlləşən qısa ömür

Elşən Mirzəhüseyn oğlu Şahpələngov özünü tanıyandan doğru yol, qurmaq-yaratmaq eşqi onun həyat qayəsinə çevrilib. 17 yaşına çatanda yaşadığı Lerik rayonu, Murya kəndində artıq nəcib amalı, gözəl əməlləri çoxlarına bələd idi. Elini, obasını sevdiyinə və vətəninin vurğunu olduğuna görə yaşından böyük görünürdü.

1990-cı ildə kənd orta məktəbini bitirən Elşən al təhsil almaqdan ötrü sənədlərini Bakı Dövlət Universitetinə verir. Tələbə adını qazansa da, ermənilərin Qarabağa təcavüzü hər an onu narahat edir. Vətənin ağır günündə mübarizə meydanında düşmənlə vuruşmağı özünə şərəf bilir. Odur ki, 1992-ci ilin aprel ayında könüllü olaraq Milli Ordu sıralarında ön cəbhəyə gedir. Azərbaycan torpağından erməni dığalarını tamam təmizləyənə qədər silahı əlindən yerə qoymamağa söz verir.

Elşənin ilk döyüş yeri Ağdərə olur. Yağılara qarşı sonsuz nifrətlə döyüşür. Şəxsi şücaəti erməni dığalarını lərzəyə saldığı qədər, əsgər yoldaşlarına da mənəvi qüvvə verir. İştirak etdiyi sonrakı döyüşlərdə də həmişə öndə gedir, öz cəsarəti və hünəri ilə seçilir.

Azğınlaşmış düşmən 22 iyul 1992-ci ildə Ağdərə rayonuna yenidən qəfil hücuma keçir. Sərsəng su anbarı ətrafında ağır döyüşlər başlanır. Ürəyində böyük bir Azərbaycan sevgisi gəzdirən Elşən dığalara qarşı son nəfəsədək vuruşaraq qəhrəmanlıqla şəhid olur. Vətənin sədaqətli övladı kimi adı tarixin hünər səhifəsinə düşür.

Elşən 1973-cü il fevralın 15-də anadan olmuşdu. Ömür yolu o qədər qısa oldu ki... Cəmi 19 il. Lakin bu qısa ömrünü xalqına, Vətəninə verdi. Məhz buna görə də dünyamız yaşa dolduqca o, ürəklərdə yaşamaqla gələn nəsil üçün də örnək olacaq. Hazırda doğulduğu Murya kəndinin məktəbi onun adını daşıyır. Burada təhsil alan uşaqlar doğma Azərbaycanın şərəfini Elşən kimi həmişə uca tutacaqlarına and içirlər.

**Zəfər Orucoğlu,**
*Azərbaycan Jurnalistlər Birliyinin üzvü*

# Daxili didişmənin parçaladığı Ermənistan



Ermənistanda Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı daxili qütbləşmə getdikcə dərinləşməkdədir. Nikol Paşinyana əks mövqe tutan yüksək vəzifəli şəxslərin həbs olunması davam edir.

Xəbər verilir ki, indiyə qədər "Qarabağ klanı"na daxil olan qüvvələr baş nazir Nikol Paşinyanın Dağlıq Qarabağ münaqişəsinin həllində yumşalma siyasətinə qarşı çıxırdısa, indi prezident Armen Sarkisyan da eyni cəbhəyə dəstək verir. Məlum olduğu kimi, Armen Sarkisyan keçmiş prezident Serj Sarkisyanın tərəfdarlarından biridir. Ona görə də heç bir məsələdə sözü Nikol Paşinyanla düz gəlmir. Ölkədəki çoxtirəlik mövcud sosial-iqtisadi və digər problemlərin həllinə ciddi maneə törədir. Qısaca desək, daxili siyasətdəki uğursuzluqlar cəmiyyətin digər sahələrinə də sirayət edərək mənfi nəticələrə səbəb olur.

Ermənistan prezidentinin məsləhətçisi Tevan Poqosyan bunları qeyd etməklə bərabər, feysbuk səhifəsində erməni ordusunun təcrübəsizliyi haqqında da həyəcanla yazıb: "2018-ci ilin yay çağırışından altı aydan da çox keçib. Altı ay əvvəl yeni xidmətə başlayan əsgərlər hətta barıt qoxusu ilə tanış deyillər, onlarda hələ ki rəqibin atəşlərinə cavab təcrübəsi yoxdur. Təcrübəsizlik həmişə qorxu doğurur. Ümid edirəm ki, bizim ordumuzda qorxunun ölçüsü üzrə çarə var, əks halda anlayırsınızmı ki, təcrübəsizliyə görə hansı vəziyyət yaranacaq", - deyə o qeyd edib.

Tevan Poqosyandan sonra Azərbaycanın işğal edilmiş ərazilərində Ermənistan tərəfindən yaradılmış separatçı rejimin "rəhbəri" Bako Saakyanın "mətbuat katibi" David Babayan iddia edib ki, "təmas xəttində sakitlik hökm sürsə də, Azərbaycan müharibə planından əl çəkməyib, cəbhədə mühəndislik işlərinin həyata keçirilməsi də bunu təsdiqləyir".

Bu iki bəyanat və Dağlıq Qarabağ münaqişəsi ətrafında müşahidə olunan yumşalma fonunda Ermənistan daxilində baş verən siyasi intriqalar diqqət çəkir. Aydın görünür ki, erməni "başbilənlər" Azərbaycan Ordusunun zəhmindən qorxurlar və bunu açıq büruzə verirlər.

Erməni şərhçi Aram Amatuni yazır ki, Poqosyanın və Babayanın sözləri mesaj xarakteri daşıyır. Bu mesaj kimə ünvanlanıb? Erməni şərhçilər hesab edirlər ki, hədəfdə münaqişənin həlli üçün danışıqlara hazır olan baş nazir Nikol Paşinyandır.

"Xüsusilə həmsədrlərin regiona səfəri və baş nazir Nikol Paşinyanla görüşlərindən sonra bu fikirlərin gündəmə gəlməsi təsadüfi deyil. Qarabağ məsələsi daxili siyasətdə həmişə olduğu kimi yenə də əsas faktor olaraq qalır", - deyə o qeyd edib.

Bütün bunlar onu göstərir ki, Ermənistan Dağlıq Qarabağ münaqişəsinin həllini uzatdıqca özünün daxilində və xarici siyasətində həllolunmaz problemlərinin sayını artırır. Əhali səfalət içərisində məşəqqət çəkir, işsizlik və dərin iqtisadi böhran ölkəni uçuruma aparır.

**Vəli İlyasov,**
***"İki sahil"***

VAHİD AZƏRBAYCAN UĞRUNDA!
iki sahil
Son səhifə
16
www.ikisahil.az / www.ikisahil.tv
GÜNDƏLİK İCTİMAİ-SİYASİ QƏZET
№ 39 (7294) / Çərşənbə, 27 fevral 2019-cu il

# Nomofobiya nədir?



Ağıllı telefonlar, planşetlər, internetə, axtardığımız məlumatlara asanlıqla daxil olmaq və sosial şəbəkələrin müxtəlifliyi asılılıq yaradır. İnsanlar virtual mühitə cəlb olunur və getdikcə tənhalaşırlar. Bu, nomofobiyaya yoluxmağı sürətləndirir.

**Nomofobiyanın əlamətləri**

Telefonunuz olmadan küçəyə çıxa bilmirsinizsə, səhər oyandıqda tez-tez ağlınıza gələn ilk şey sosial şəbəkələrdəki hesablarınızı yoxlamaqdırsa, sizə gələn bildirişlər əhvalınıza təsir edirsə və internet bağlantınızın olmaması sizin üçün dözülməz bir haldırsa, bu o deməkdir ki, artıq siz sosial şəbəkələrdən asılı olan bir insana çevrilirsiniz.

**Şəkil paylaşmaq asılılığı**

Şəkil və video paylaşmaq, bloq açmaq, internet oyunları, sosial şəbəkələrdə qurulan münasibətlər və yığıncaq kimi sosial şəbəkələr üzərində geniş fəaliyyət növlərini əhatə edən virtual dünya insanların smartfonlarından məhrum olmaqdan qorxmalarına səbəb olmağa başlayıb. Nomofobiya kimi tanınan bu vəziyyət, insanın onlayn olma, ünsiyyət itkisi, cihaz çatışmazlığı və məlumat əldə edə bilməməsinə səbəb ola bilər.

**Gündəlik həyatdan uzaqlaşmaq**

Texnologiya və sosial şəbəkələrdəki yenilikləri təqib etməyə meyilli olmaq nomofobik insanların sayını əhəmiyyətli dərəcədə artırır. Eyni zamanda, gündəlik həyatın sıxıntılarından qaçmaq, sosial şəbəkələrdə gələn mükafat mexanizmini yamsılayan "like"lar, dostluq və izləyici istəkləri, bildirişlər, şərhlər interneti boş vaxtlarda vaxt keçirmək üçün cəlbedici məkan halına çevirir. Araşdırmalar internetdən sui-istifadənin əsas səbəbinin gündəlik həyatın mənfi hissələrini aradan qaldırmaq və alternativ dünyada süni bir xoşbəxtlik yaratmaq olduğunu sübut etmişdir.

**Sosial şəbəkələrdən düzgün istifadə edin**

Gündəlik həyatımızda ünsiyyət qurmaq, məlumat əldə etmək və özünü ifadə etmək üçün ən vacib vasitələrdən biri olan sosial şəbəkələr həm də insanların həyatını zənginləşdirən, azadlıq hissi verən bir sahədir. Problem sosial şəbəkələrin istifadəsi deyil, ondan nə dərəcədə və nə üçün istifadə edilməsidir. Sosial fəaliyyətə və ümumi sağlamlığa zərər verən problemli istifadə sosial şəbəkələrdən asılılığa, işdə və ailədə ciddi problemlərə yol aça bilər. Buna görə də internetdən istifadə edərkən nə üçün istifadə edəcəyimizi müəyyənləşdirmək və bu səbəblərlə işləmək vacibdir. Digər tərəfdən, internetdən asılılıq yaradan psixoloji səbəblər də müəyyən edilməlidir.

# Qoji giləmeyvəsi və faydaları



Qoji giləmeyvəsi "qurd üzümü" adı ilə bilinən bitki olub, tərkibindəki vitamin və minerallar sayəsində bütün dünyada diqqəti cəlb edən meyvədir.

Qoji giləmeyvəsi Vətəni Tibet olan kiçik qırmızı rəngli yumşaq meyvədir. Qoji giləmeyvəsi min yeddi yüz il ərzində Tibetdə yetişdirilmiş, bütün dünyaya isə son illərdə gətirilmiş bir meyvədir.

Polisakaridlər və güclü antioksidantlar sayəsində sərbəst radikalların və erkən yaşlanma ilə əlaqədar zərərin qarşısını alır. C vitamini ilə zəngin olduğu üçün ən təsirli antioksidantlardan biri kimi tanınır.

**Qoji giləmeyvəsinin faydaları**

*İmmunitet sistemini gücləndirir.
*Vitaminlər sayəsində orqanizmi qrip virusuna qarşı qoruyur.
*Yaşlanma əleyhinə təsir göstərir və sərbəst radikallarla dəri yaşlanmasını azaldır.
*Yüksək dozada antioksidant ehtiva edir və hüceyrələri zəhərli maddələrdən qoruyur.
*Göz və dəri sağlamlığı üçün mükəmməldir.
*Pəhriz və artıq çəki atma prosesini dəstəkləyir.
*Yüksək lif tərkibi ilə yanaşı, sağlam qidalanmaya yardımçı olur.
*İnsülin müqavimətini balanslaşdırır.
*Yuxu keyfiyyətini artırır.
*Stress və yorğunluq kimi problemləri azaldır.
*Anksiyet və depressiyadan qorunmağa kömək edir.
*Həzm sistemi üçün yaxşıdır.
*Xolesterol səviyyəsini tənzimləyir.

Röya Rasimqızı



## Messi 1-ci oldu, Ronaldu "yoxa çıxdı"

"Football Observatory" analitik mərkəzi 2018-ci ildə Avropanın "TOP-5" liqasında ən çox driblinq edən futbolçuların adlarını açıqlayıb.

Milli.Az xəbər verir ki, ötən il ən çox driblinq edən futbolçu "Barselona"nın hücumçusu Lionel Messi olub. Argentinalı futbolçu hər qarşılaşmada orta hesabla 19,2 dəqiqədən bir driblinq edib.

"Yuventus"un futbolçusu Kriştianu Ronaldu analitik mərkəz tərəfindən hazırlanan, 50 futbolçunun yer aldığı siyahıda özünə yer tapmayıb.

Lionel Messi - "Barselona"
Allan Sen-Maksimen - "Nitsa"
Eden Hazard - "Çelsi"
Naim Sliti - "Dijon"
Osman Dembele - "Barselona"
Ceydon Sanço - "Borussiya" (Dortmund)
Markus Türam - "Genqam"
Ceff Ren-Adelaid - "Anje"
Uilfrid Zaha - "Kristal Pelas"
Anxel Korrea - "Atletiko"

## Sensasiyalı açıqlama: Marsda həyat varmış

Marsda milyon illər öncə həyat olub. Çaylar axıb, meşələr mövcud olub.

Avropa Kosmik Agentliyinin (European Space Agency, ESA) alimləri belə deyirlər.

Milli.Az Daily Mail-ə istinadən bildirir ki, onlar "Mars Express Satellite" vasitəsilə əldə olunmuş görüntülərə əsaslanırlar.



"Qırmızı planet"in səthində milyonlarla il əvvəl həyat olub, çaylar axıb, okeanlarda dalğalar sahilə çırpılıb.

Avropalı alimlərin fikrincə, əvvəllər Mars planetində hava isti və rütubətli olub. Onlar su izlərini aşkarladıqlarını inamla deyirlər.

Marsda əvvəllər həyat olub-olmadığını dəqiqləşdirmək üçün ESA "Qırmızı planet"ə xüsusi missiya yollamağa hazırlaşır.

## "Yuventus"dan növbəti rekord



İtaliya A seriyasının lideri "Yuventus" növbəti rekorda imza atıb.

Milli.Az xəbər verir ki, bu mövsüm ölkə çempionatında məğlubiyyət görməyən Turin klubu A seriyasının tarixində ilk 25 matçda ən çox xal toplayan (69 xal) komanda olub.

Bundan əvvəlki rekord 66 xal idi. "İnter" (2006/2007), "Yuventus" (2013/2014) və "Napoli" (2017/2018) həmin rekorda şərik idi.

Qeyd edək ki, Massimiliano Alleqrinin komandası bu mövsüm ölkə çempionatında 22 qələbə qazanıb, 3 heç-heçə edib.

## ALLAH RƏHMƏT ELƏSİN!

SOCAR-ın "Azəriqaz" İB-nin rəhbərliyi, Həmkarlar İttifaqı Komitəsi və əmək kollektivi Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı
**Rövşən İbrahimovun**
vaxtsız vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

SOCAR-ın Ekologiya İdarəsinin rəhbərliyi və kollektivi Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı
**Rövşən İbrahimovun**
vaxtsız vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

SOCAR-ın Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodunun əmək kollektivi Zavodun direktoru Roman Nağıyevə, əmisi oğlu
**Nofəl Nağıyevin**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

SOCAR-ın Geofizika və Geologiya İdarəsinin rəhbərliyi, Həmkarlar İttifaqı Komitəsi və əmək kollektivi Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı
**Rövşən İbrahimovun**
vaxtsız vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

SOCAR-ın Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodunun rəhbərliyi, Həmkarlar İttifaqı Komitəsi və əmək kollektivi Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı
**Rövşən İbrahimovun**
vaxtsız vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

SOCAR-ın Ekologiya İdarəsinin rəhbərliyi və kollektivi SOCAR-ın "Qaz İxrac" İdarəsinin Əməyin mühafizəsi üzrə rəis müavini Sarxan Babaşova, atası
**Mıxayəddin Babaşovun**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

SOCAR-ın Təlim, Tədris və Sertifikatlaşdırma İdarəsinin rəisi Fuad Süleymanov, Həmkarlar İttifaqı Komitəsi və əmək kollektivi Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı
**Rövşən İbrahimovun**
vaxtsız vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

SOCAR-ın Kompleks Qazma İşləri Trestinin rəhbərliyi, Həmkarlar İttifaqı Komitəsi və əmək kollektivi Trestin Anbar Təsərrüfatı bölümünün rəis müavini Loğman Abdullayevə, atası
**Seyfəddin Abdullayevin**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Təsisçi: SOCAR

Baş redaktor: Vüqar RƏHİMZADƏ
Baş redaktorun I müavini: İsmayıl HACIYEV

Bakı: Kapital Bankın 1 saylı Xətai filialı H/hesab
№AZ19AIIB380300194437 00306107
Kod № 200071
VÖEN: 2000157291

TELEFONLAR:
Qəbul otağı: 530-26-46, 430-87-97
Baş redaktorun I müavini: 530-26-36
FAX: 430-87-47
Mühasibatlıq: 430-87-27
e-mail: ikisahil@azdata.net

Ünvan: AZ1012 Bakı, H.Zərdabi prospekti-88

Qəzet "İKİ SAHİL"in kompyuter mərkəzində yığılır və "AZƏRBAYCAN" nəşriyyatında ofset üsulu ilə çap olunur.

Çapa imzalanıb: 27.02.2019-cu il saat 01:00
Qiyməti: 40 qəpik, Sayı: 8327
İndeks: 0151, Sifariş: 624

Qəzetdə "AZƏRTAC", "OLAYLAR", "Azadİnform", "TREND", SİA, İnterFAX informasiya agentliklərinin məlumatlarından istifadə olunub.

Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.